Arxivlərə düşən İŞIQ

İTTİHAMNAMƏ

R.Bahar SONAM

İTTİHAMNAMƏ

Hökmranlar Allahdan qorxmur?..

MİRCƏFƏR BAĞIROV:

- Mən onsuz da əfv edilməyəcəyəm. Çünki xirtdəyəcən qan içindəyəm.Mənim ətrafımdakılar mənim zəncirli itlərimdi. Və daima onlar mənim qanlı aksiyalarımı həyata keçiriblər: Sumbatov, Yemelyanov, Qriqoryan, Makaryan...

Hökmüranlar Allahdan qorxmur?

R.Bahar SONAM

İTTİHAMNAMƏ

Mir Cəfər Bağırovun MƏHKƏMƏSİ

(DTK Arxiv materialları)

Bakı - 2019

Tarixi araşdırarkən, Mir Cəfər Bağırov hədəfi məni hər zaman çox ciddi düşündürürdü. Çünki, onun haqqında elə qəribə rəvayətlər var ki, bu gün də öz aktuallığını saxlamaqdadır. Çünki, tarix boyu dövlət rəhbərlərinin həyat sonluqları çox müəmmalı olmuşdur. Adolf Hitlerdən İossif Visardanoviç və başqa son hakimiyyət fironlarınına kimi. Onlardan biri də, ictimai-siyasi cəmiyyətin diqqət-marağını daha çox çəkən Mir Cəfər Bağırovdur. Mən R.Bahar Sonam bu heyrətamiz – qorxulu dövlət başçısı haqda DTK arxivi araşdıraraq, yalnız daha doğru olanı təhlillər əsasında bütün dünya ictimaiyyətinə təqdim edirəm.

Elm-təhsil, 2019

Mənim üçün, bir araşdırmaçı hərbi yazıçı kimi, Əkrəm Əylislinin "Hökmüranlar Allahdan qorxmur" başlıqlı giriş düşüncələri də çox maraqlı olduğu üçün, bu səhifələrə toxunmadan ictimaiyyin müzakirəsinə verirəm.

HÖKMRANLAR ALLAHDAN QORXMUR

Bəs onlar adi adamlardan, görəsən daha nə ilə fərqlənir? Bu adamları hökm sahibi eləyən nədir görəsən: ağılmı, iradəmi, tsadüfmü, qanunauyğunluqmu?.. Bəlkə bu adamlar xalqların taleyinə – gah Alahın, gah da Şeytanın əli ilə – Yuxarıdan – Göydən yazılır və buna görə dünyada adil və ali hökmdarlar da olur, zalım və rəzil hökmranlar da.

İndi – gözümüzün qabağında tarixin boz sifəti bir daha dəyişərkən – dünyanı zaman-zaman öz hökmünə, öz iradəsinə tabe eləyənlərin fiziki və əxləqi varlığı necə də aydın görünür!.. Və bu, suyu süzülən, qanı axan aydınlıqda MİR CƏFƏR BAĞIROVUN tutqun, boz sifəti tarixin qəbiristanlığından elə bil ölü-ölü, soyuq-soyuq bizə baxır. Və dvhşət burasındadır ki, bu «ölülükdə» – soyuqluqda bir müthiş dirilik, bir qorxunc həyatilik, bir allahsız-imansız ƏBƏDİLİK var!

Hökmranlar Allahdan qorxmur, çünki hökmranların Allahı olmur. Və Allahı olmayan əməlin izahı ola bilməz: bəlkə buna görə hökm sahiblərinin bir çox əməllərini biz adi adamlar heç vaxt dərk eləyə bilmirik.

Mir Cəfər Bağırov kim idi? Dünyanı, tarixi, həyatı dəyişməyə və bundan ötrü baş kəsməyə, qan tökməyə onu kim vəkil eləmişdi: özümü, zamanmı, Allahmı, Şeytanmı?.. 1956-cı ilin yazında Mir Cəfər Bağırovun məhkəməsində oturan adamların arasında bu çətin suallara cavab axtaranlar da yəqin ki, olmuşdu.

O məhkəmədə Mir Cəfər Bağırova ölüm hökmü kəsildi. Bu hökmün çıxarıldığı vaxtdan təxminən iyirmi il sonra Mir Cəfər Bağırov Kazan şəhərindəki həbsxanaların birində bu dünyadan öz əcəli ilə köçüb getdi.

Bağırovun həyat yolu məni heç vaxt dərindən düşündürməyib. Ancaq indii bu sözləri yaza-yaza heç olmasa o uzun müddətli həbsxana həyatında onu adi bir insan kimi görməyə bir Allah bilir ki, ürəyimdə nə qədər ehtiyac duyuram. Amma görə bilmirəm. Bəlkə ona görədir ki, şərin rəmzinə çevrilənlərin haçansa insan sifətində olmağı da vaxt keçdikcə unudulur, yaddan çıxır.

Hökmranlar gəlir–gedir. Və onlar Allahdan qorxmasalar da, bu şərli –xeyirli dünyamız yenə Allaha qalır…

ƏKRƏM ƏYLİSLİ

BAĞIROV MİR CƏFƏR ABBASOĞLU

ŞƏXSİ İŞ:

BAŞ DÖVLƏT TƏHLÜKƏSİZLİK İDARƏSİNİN XÜSUSİ EHTİYAT UÇOTUNDA QEYDİYYATDA OLAN DAXİLİ İŞLƏR XALQ KOMİSSARLIĞI İDARƏSİNİN MÜDİRİ VƏZİFƏSİNDƏ ÇALIŞAN YOL. BAĞIROV MİR CƏFƏR BARƏDƏ:

ARAYIŞ

(tərtib olunub 28. III. 37.)

ANADAN OLDUĞU İL, YER – *1895, Bakı quberniyası, Quba ş.;*

MİLLİYYƏTİ – *Türk;*
İCTİMAİ VƏZİYYƏTİ – *qulluqçu, – yoxsul kəndli;*
ÜK(b)P ÜZVÜ – *1917-ci ildən;*
TƏHSİLİ – *orta, (ibtidai);*
ANA DİLİ – *Türk;*
HANSI DİLLƏRİ BİLİR – *türk, rus, ləzgi.*

Qabaqlar ÜK(b)P–da olub-olmaması, digər partiyplprın üzvü olub-olmaması, müxalifətdə iştirak edib-etməməsi, əvvəlki hökumətin ordusunda xidmət edib-etməməsi barədə sorğuya «yox» cavabı verilmişdir.

«Partiya cəzası varmı» sualına – «1929-cu ildə ÜK(b)P MK-nın xəbərdarlığı» cavabı var.

Şəxsi və xidməti Tərcümeyi-hal

1915-1917-ci illər arasında kənd müəllimi işləyib. Fevral inqilabının əvvəlindən bir sıra rəhbər vəzifələrdə çalışıb. 1918-ci ildən 1921-ci ilədək əvvəlcə Qızıl Orduda müxtəlif siyasi rəhbər v ə z i f ə l ə r d ə: **polk komandiri, Azərbaycan diviziyasının hərbi komissarı, Rusiya hərbi dairəsi Qafqaz korpusunun təlimatçısı, Azərbaycan diviziyası inqilab tribunasının və səyyar sessiyasının sədri** kimi vəzifələrdə çalışıb.

1921-ci ildən 30-cu ilədək Xalq Daxili İşlər Komissarlığı Baş Siyasi idarəsi orqanlarında ç a l ı ş ı b: **Azərbaycan Baş Siyasi İdarəsində sədr**, 1927-ci ildən 30-cu ilədək isə orada **kollegiyanın sədri**, eyni zamanda **Zaqafqaziya su təchizatı idarəsinin rəisi** vəzifəsində çalışıb. 1930-cu ildə kollegiya sədrliyindən azad olunub və bütünlüklə Zaqafqfziyanın su təchizatı işinə keçib. Sonra partiya işinə keçirilib. Hazırda **AK(b)P MK-nın katibidir**. Hərbi xidmətlərinə görə bir sıra m ü k a f a t l a r a, **Əmək ordeni**, **Qırmızı Bayraq ordeni** və s. layiq görülüb.

T ə h s i l i – Quba şəhərində 4 sinif, Petrovsk şəhərində 2 illik pedaqoji kurs bitirib.

Ailə vəziyyəti:
Arvadı – *YEVGENİYA, 20 yaşında;*
Anası – *MARİYA, 52 yaşında;*
Bacısı qızı – *SƏKİNƏ, 14 yaşında;*
Oğlu – *VLADİMİR, 10 yaşında.*

M Ə X F İ

0043 №-li cinayət işi üzrə

1. BAĞIROV MİR CƏFƏR ABBASOVİÇİN,
2. ATAKİŞİYEV AĞA SƏLİM İBRAHİM OĞLUNUN,
3. MARKARYAN RUBEN AMBARSUMOVİÇİN,
4. QRİQORYAN XOREN İVANOVİÇİN,
5. BORŞEV TİMOFEY MİXAYLOVİÇİN,
6. YEMELYANOV STEPAN FYODOROVİÇİN

RSFSR CM-nin 58 – 1 (b); 58 – 8; 58 – 11 maddələri ilə müqəssir bilinmələri bərədə

İ T T İ H A M

1953-cü ilin iyununda L. P. Beriyanın xarici kapitalın mənafeyi naminə sovet dövlətini sarsıtmaq, hakimiyyəti ələ almaq, sovet fəhlə-kəndli quruluşunu dağıtmaq, burjua hakimiyyətini bərpa etmək məqsədilə SSRİ hökumətini və Sov. İKP-ni Daxili İşlər Nazirliyindən asılı vəziyyətə salmaq cəhdləri dövlət, partiya əleyhinə cinayətkar fəaliyyəti kimi MK tərəfindən ifşa edilmişdir.

SSRİ ALİ Sovetinin 1953-cü il 8 avqust tarixli qərarına müvafiq olaraq Beriyanın və onun əlaltılarının işi baxılmaq üçün SSRİ Ali Məhkəməsinə göndərilmişdi.

1953-cü il dekabrın 23-də SSRİ Ali Məhkəməsi Vətənə xəyanət və digər ağır dövlət cinayətləri törətdiklərinə görə Beriya və onun yaratdığı xəyanətkar qrupun digər fəal üzvlər: Merkulov, Dekanozov, B. Kobulov, Qoqlidze, Meşik, Vlodzimirski ən böyük cəzaya – güllələnməyə məhkum edildilər.

Beriya və onun yaxın əlaltılarının ifşası ilə əlaqədar olaraq sui-qəsdçi qrupun başçılarının Beriyanın digər həmməsləkləri ilə əlaqələri araşdırılmağa başladı. Məlum oldu ki, xalq düşməni Beriyanın ən yaxın və aktiv məslək dostu uzun illərdən bəri cinayətkər fəaliyyətdə onunla sıx tellərlə bağlı olan, bu iş üzrə müqəssir hesab edilən M. C. Bağırov olmuşdur.

Göstərilənlərə əsasən M. C. Bağırov həbs olunmuşdur.

M. C. Bağırovun işi üzrə istintaqda məlum olmuşdur ki, 1921-ci ildən – Bağırov Bakı şəhərində Azərbaycan Fövqəladə Komitəsinin sədri olan vaxtdan etibarən Beriyanın müsavat əkskəşfiyyatı ilə bağlı cinayətkar fəaliyyətindən tam xəbərdar imiş və cinayətkar keçmişini ört-basdır etməkdə ona yaxından köməklik göstərirmiş. Bağırov bilirdi ki, Beriya müsavat əkskəşfiyyatına kommunist partiyası və ya digər inqilabi təşkilatlar tərəfindən göndərilməyib, ingilis kəşfiyyatının nəzarəti altında fəaliyyət göstərən müsavat əkskəşfiyyat xidmətinə öz xoşu ilə daxil olub və inqilabi fəhlə hərəkatına qarşı fəal mübarizə aparıb. Bağırov bütün bunları bilə-bilə, Beriyanı ifşa edəcək adamların aradan götürülməsində, sənədlərin oğurlanıb məhv edilməsində, Beriyaya ötürülməsində fəal iştirak edərək Beriyanın məsuliyyətdən kənar olmasına köməklik göstərmişdir.

Beriya da öz növbəsində vətəndaş müharibəsi illərində banditizmlə məşğul olan Bağırovun cinayətkar keçmişini ört-basdır etmiş və onu ifşa edə biləcək adamların aradan götürülməsində, məhv edilməsində yardımçı olmuşdur.

Öz aralarında qarşılıqlı şəkildə bu cür sıx cinayətkar tellərlə bağlanan Bağırov və Beriya bir-birini təkcə ifşa olunmaq təhlükəsindən qorumurdular, həm də bütün cinayət fəaliyyətləri dövründə, ta Beriya həbs olunana qədər bir-birinin müxtəlif məsul vəzifələrə təyin olunmaları üçün canfəşanlıq göstərirdilər.

Uzun illər boyu Beriya, Bağırov və onların əlaltıları öz düşmənçilik və xəyanətkarlıq fəaliyyətlərini məharətlə pərdələmiş, gizlətmiş, bu yolda terrorçuluq fəaliyyətindən də çəkinməmiş, ifşa olunacaqlarından xoflanaraq müxtəlif şəxslərin qətlinə fərman vermişlər.

Beriya və Bağırovun Zaqafqaziyada sovet hakimiyyətinin təşəkkülü dövründə və vətəndaş müharibəsi illərindəki cinayətkar fəaliyyətindən xəbərdar olan şəxslərin xüsusilə təhlükəli olduğunu nəzərə alaraq, bir sıra kommunistlər xəyanətkar qrupun üzvləri tərəfindən məhv edildi.

Sovet xalqının qatı düşməni, Vətən xaini, xarici kəşfiyyatlara satılmış Beriya öz cinayətkar fəaliyyətində əsas metod kimi hakimiyyətə və Sovet dövlətinə qarşı düşmənçilik niyyətlərinə çatması yolunda ona maneə olan namuslu partiya və sovet işçilərinə

qarşı böhtandan, intriqa və müxtəlif təxribatlardan istifadə edirdi. Öz xəyanətkar niyyətlərinin həyata keçirilməsindən, Beriya və onun əlaltıları dövlət təhlükəsizlik orqanlarındakı məsul vəzifələrindən istifadə etmişlər.

Günahsız adamların istintaq işinin saxtalaşdırılması, onlara qarşı yalançı əksinqilabi fəaliiyət ittihamı verilməsi yolu ilə Beriyanın sui-qəsdçi qrupu Zaqafqaziyanın bir çox partiya və sovet işçiləri, Zaqaəqaziya respublikalarının mədəniyyət xədimləri və ziyalı nümayəndələrinin terrorçuluqla məhv edilməsinə səbəb olmuşdur.

Beriya və onun əlaltıları qorxu, xof yaratmaq, namuslu sovet adamları arasında şübhə, inamsızlıq toxumu səpmək, milli düşmənçilik törətmək, onları ifşa edə biləcək adamları aradan götürmək yolu ilə cinayətlərin məsulliyyətindən uzaqlaşmağa çalışırdılar.

Bağırovun və cinayətkar fəaliyyətdə onun ən yaxın məsləkdaşları olan Sumbatov – Topuridze, Atakişiyev, Markaryan, Qriqoryan, Borşev, Yemelyanovun işi üzrə istintaq müəyyənləşdirib ki, onlar da öz cinayətkar fəaliyyətlərini Beriyanın yaratdığı sui-qəsdçi qrup üçün xarakterik olan metodlarla həyata keçiriblər.

Günahsız adamlara qarşı terrorçuluq fəaliyyətini biləvasitə həyata keçirmək üçün Gürcüstanda Beriya, Azərbaycanda isə Bağırov qabaqkı cinayətləri Bağırov tərəfindən ört-basdır edilən, onun tapşırığı ilə Sovet hökumətinə qarşı istənilən cinayəti törətməyə hazır olan şəxsləri XDİK – DİN – DTN orqanlarına qəbul etmişdi.

Kommunist partiyasına və Sovet hökumətinə sadiq, namuslu kadrlara divan tutmağı qarşısına məqsəd qoymuş Bağırov və onun əlaltıları günahsız adamların istintaq işini saxtalaşdırdılar. Bağırov namuslu adamların kütləvi şəkildə həbs edilməsi barədə sərəncam verirdi, bundan sonra həbsdə olanlara qarşı zor işlədilir, onlar vəhşicəsinə döyülür, bu yolla da işgəncəyə dözməyən adamlar faktiki olaraq heç vaxt məşğul olmadıqları əksinqilabi fəaliyyətdə günahkar olduqlarını boyunlarına alır, hələ digər günahsız adamların da üzünə dururdular.

Bu yolla Bağırov və onun əlaltıları öz xəyanətkar əksinqilabi fəaliyyətlərini ört-basdır etmək məqsədilə Azərbaycanın müxtəlif rayonlarının kolxozçularını, neft buruqlarında, Xəzər gəmiçiliyində çalışan fəalları, Azərbaycanın elm, incəsənət və mədəniyyət xədimlərini əksinqilabi fəaliyyətdə günahlandırmaq məqsədilə həmin günahsız adamlara qarşı saxtalaşdırılmış cinayət işi qaldırırdılar.

Bağırov və əlaltıları günahsız adamların guya ki, Beriyaya, Bağırova, Sumbatov – Topuridzeyə və b. qarşı terrorçuluq aktları hazırlanması barədə yalan ifadələr verməyə məcbur edirdilər.

Bağırov və onun ən yaxın məsləkdaşları – keçmiş menşevik Sumbatov- Topuridze, eləcə də bu iş üzrə müqəssir hesab edilən Atakişiyev, Markaryan, Qriqoryan, Borşev və Yemelyanov yüzlərlə, minlərlə namuslu adama amansız divan tutulmasına səbəb olmuşlar.

Bu yolla əksinqilabi fəaliyyətdə günahlandırılan, sonra isə qətlə yetirilənlər arasında Azərbaycanın keçmiş MK katibləri Ru-

hulla Axundov, Əliheydər Qarayev, ZSFSR XKS-nın keçmiş sədri Qəzənfər Musabəyov, sədr müavini Mirzə Davud Hüseynov, Azərbaycanın əkinçilik üzrə keçmiş xalq komissarı Heydər Vəzirov, Azərbaycan xalq komissarları sovetinin keçmiş sədri Dadaş Bünyadzadə, Azərbaycan MİK sədri Sultan Məcid Əfəndiyev, Azərbaycan XKS sədri Hüseyn Rəhmanov, Azərbaycan kommunal təsərrüfat üzrə xalq komissarı Həmid Sultanov, Azərbaycan XKS müavini Xəlilov, Azərbaycan Xalq Maarif komissarı Guvarlinski, Azərneftin keçmiş rəisi Barinov, Xəzər cəmiçiliyi idarəsi siyasi şöbəsinin rəisi Həsən Rəhmanov, Azərbaycan Fövqəladə Komissarlığının keçmiş sədri Baba Əliyev və bəşqələrı da var idi.

...Çox qəribədir ki, Sovet inperiyası tərəfinfən Azərbaycan KP-nın yüksək səlahiyyət kabinetlərinə təyin olunan məsuliyyətli şəxslər tədriclə, Sovet partiyasına və hökumətinə qarşı cinayyət işləri ilə məşqul olmağa başlayıblar. Mükəmməl insan dəqiq anlaya bilmir ki, tarixi yazanlar həqiqətləri yazıblarmı? Araşdırıb öyrəndiklərimiz bəlkə də tarixin gerçək üzüdür. Çünki, Azərbaycanda Milli Hökumət bolşevik hakimiyyətin əlinə keçdikdən sonra, sil-silə olaraq saysız qədər də qarışıqlıq, zoorakılıq, çalıb-çapmaq siyasəti yeridilmişdir. Bəlkə də müxtəlif hökumət vəzifələrində çalışmış M.Bağırov daha yüksəkliyi qazanmaq üçün özünə hiylə-gərcəsinə təcrübə toplamışdır. Və siyasi əqidəcə Beriya ilə birləşmişdir. Təəccüblüdür, Axı onsuz da M. Bağırovun Azərbaycanın başına keçməsi real ikə, ona daha nə lazım olmuşdur. Və Beriya ilə Sovet partiya-hökumətinə qarşı əksinqilabi təşkilatlanmaq onun nəyinə gərək imiş? Bu necə bir iblis məqsədi olmuşdur ki, bu cinayətkar yolunda Sovet İmperiyasına sədaqətlə xidmət edən namuslu ziyalı zümrəsinə, dövlət xadimlərinə və kütləvi surətdə

Azərbaycan xalqına saysız-hesabsız divanlar tutmuşdur. Əgər M.Bağırovun fəaliyyəti saxtalaşdırılıbsa, o zaman Azərbaycan xalqının başına gətirilənlərin günühkarı kimdir. Axı, Azərbaycan MK-nin başçısı M.Bağırov olub. Əgər, onun Azərbaycan xalqına qarşı törətdiyi ağır cinayətlər İ.V.Stalinin əmri olubsa, o, bu tarixi vəhşiliklərə imza atmamalydı. Demək, özünün hakimiyyətçiliyini qoruyub saxlamaq üçün, mütləq xalqa qarşı cinayətə əl atmalı idi? Ətrafına topladığı erməni-rus-gürcü itlərinin hesabına planlaşdırdığı bütün qanlı aksiyalarını həyata keçirmişdir. Bəzi tarixçi və jurnalistlər onun günahsız olduğunu etiraf edirlər. Bu, çox qəzəbdoğrucu söləntidir. Əgər bu həqiqətdirsə, o zaman Azərbaycan 37-39-cu illərin represiyyasını kim həyata keçirib? Tarixin bu amansız işgəncəli qara səhifələrini kim yaradıb? KİM??? Bu gün, hətta uşağı da aldatmağ mümkün deyil!

M.Bağırov milliyyətcə türk olmayıb. Çünki, anası Mariya başqa millətə mənsubdur. Atasının türk olduğu müəmmalıdır. **ARBS.**

İSTİNTAQ MATERİALLARINDAN

Bağırov Azərbaycanın Mərkəzi İcraiyyə komitəsinin sədri Sultan Məcid Əfəndiyevə olan düşmənçilik münasibətini gizlətmirdi, müxtəlif yığıncaqlardakı çıxışlarında və replikalarında onu təhqir edir, acılayır, lağa qoyurdu. 1937-ci ildə Bağırov artıq təhqirdən birbaşa hədəyə keçdi. Belə ki, 1937-ci ilin iyununda Azərbaycan Kommunist partiyasının XIII qurultayında Bağırov Əfəndiyevin çıxışını kobudcasına pozaraq dedi:

«Əfəndiyev istəyir ki, biz onun əldə silah açıq-aşkar bizə qarşı vuruşmasçna icazə verək. Sən gəbərəcəksən, ancaq biz buna yol verməyəciyik. Sənin lə vaxtında haqq-hesab çəkməyi bacararıq».

Əfəndiyevin hansı «silah»la açıq-aşkar «vuruşmağının» və bu «vuruşmaq» cəhdinin nədən ibarət olduğu Bağırovun çıxışının stenoqramından aydın olur. O, Əfəndiyevə müraciətlə b i l d i r i r d i:

«Siz bizim - Azərbaycan K(b)P MK rəhbərlərinin əleühinə yazılmış ərizələri dırnaqarası qohumlarınızla Moskvaya göndərmisiniz».

Bağırov Əfəndiyevi Bakıda 1937-ci ilin 24 iyununda, yəni Azərbaycan KP XIII qurultayından dərhal sonra Sumbatovun əli ilə həbs etdirmişdi. İstintaq zamanı Əfəndiyev əksinqilabi mili təşkilat mərkəzinin üzvü kimi ittiham edilib təqsirləndirilirdi. Bir sıra istintaq protokollarında Əfəndiyev günahkar olduğunu boynuna alırdı, məhkəmə zamanı isə bu ifadələrdən imtina edirdi.

Azərbaycan XDİK əməkdaşlarının tərtib etdiyi aktlardan aydın görünür ki, Əfəndiyev yalan mfadələr verməyə məcbur olmuşdur. Məsələn, 1937-ci il avqustun 16-da Daxili işlər komissarlığının əməkdaşı Tsinman tərəfindən tərtib olunmuş **aktda** g ö s t ə r i l i r:

«İstintaqa çağırılmış müttəhim Sultan Məcid Əfəndiyev bildirdi ki, əksinqiləbi fəaliyyətdə iştirak etməsə də, hazırki siyasi vəziyyəti nəzərə alaraq, Azərbaycandakı mili əksinqilabi təşkilatda iştirakı barədə ifadə verməyə hazırdır».

S. M. Əfəndiyevin və daxili işlər komissarlığının əməkdaşı Qvozdevin imzaladığı 1937-ci il 25 sentyabr tarixli aktda məhbus Əfəndiyevin «heç vaxt əksinqilabi təşkilatın üzvü olmadığına baxmayaraq, onun həmin təşkilatın üzvü olması barədə qondarma ifadf verməyə məcbur olduğu, bunun üçün bir neçə günlük möhlət verilməsini xahiş etməsi barədə» ərizəsi öz əksini tapıb.

Həqiqətən də 1937-ci ilin 5 və 6 oktyabrında daxili işlər komissarlığının əməkdaşları Qvozdev və Sonkinin apardığı istintaqlarda tərtib olunmuş istintaq protokollarını imzalayan Əfəndiyev əksinqilabi təşkilat üzvü olmaqda özünü müqəssir hesab edir, Ruhulla Axundov və başqaları ilə birgə təxribatçılıq fəaliyyətləri barədə ətraflı izahat verirdi. Əvvəlcədən tərtib olunmuş bu istintaq protokollarını Əfəndiyev məruz qaldığı amansız işgəncə və cəzalardan sonra imzalamışdı. Bunu daxili işlər komissarlığının keçmiş əməkdaşları Vozniçuk, Dudiyev, Xaldıbanov, Ananyev, Əliyev, Zahid Bağırov və başqalarının şahidlik ifadələri də təsdiq edir. Məsələn, keçmiş baş həbsxana nəzarətçisi D. P.VOZNİÇUK 1954-cü il mayın 21-də istintaq zamanı b i l d i r m i ş d i:

«MİK sədri Əfəndiyev, keçmiş orqan işçisi Pavlov amansız cəzalara məruz qalırdılar. Əfəndiyevi elə möhkəm döyürdülər ki, istintaqdan sonra onu yerdən qaldırmaq mümkün olmurdu».

Ş a h i d V. M. DUDİYEVİN i f a d ə s i n d ə n:

«Bir dəfə mən Sonkinin kabinetinə daxil odum… Otaqda əməliyyat müvəkkili Nikolay Musatov (boksçu), **Tsinman, xalq komissarı Sumbatov və bir də işçilərdən kimsə var idi. Dustaqlardan yalnız Sultan Məcid Əfəndiyev otaqda idi. O,**

döyülüb-əzilmiş, köynəyi cırıq-cırıq olmuş halda döşəməyə çökmüşdü. Müstəntiqlərdən kimsə onun üstünə su tökərək, özünə gətirməyə çalışırdı, o birisi isə «ifadə ver» - deyə dümsükləyirdi».

Ş a h i d X. P. XALDIBANOVUN d e d i k l ə r i n d ə n:

«Şəxsən mən Tsinmanın və əməliyyat müvəkkili Kolya Musatovun Azərbaycan Ali Sovetinin sədri S. M. Əfəndiyevi necə istintaq etdiklərini, döyüb, əzab verdiklərini öz gözümlə görmüşəm. Tsinman onu istehza ilə «prezident» adlandırıb ələ salırdı».

Ş a h i d l ə r T.E. ANANYEV və ZAHİD BAĞIROV da bu deyilənləri təsdiq etdilər.

Ananyev bir də onu dedi ki, Əfəndiyev müstəntiqlərin onu ələ salması barədə Sumbatova şikayətlənəndə, Sumbatov onun üzünə bir yumruq vurub getdi, müstəntiqlər isə döymə əməliyyatını davam etdirdilər.

Əfəndiyevin müqəssir olduğuna «s ü b u t» kimi Ruhulla Axundovun saxtalaşdırılmış istintaq protokolları da, digər buna bənzər «s ə n ə d l ə r» işə əlavə olunub. Bu saxtalaşdırılmış materiallar əsasında sultan Məctd Əfəndiüev 1938-ci ildə güllələnib.

SSRİ Ali məhkəməsinin qərarı ilə Əfəndiyevin işinə xitam verilib və o, ölümündən sonra tam bəraət alıb.

.... İstintaq materiallarından göründüyü kimi, M.C.Bağırov heç də şəffaf sovetçi olmayıb. Onun necə düşmənçilik prinsipləri yürüdən qatı qərəzçi olduğunu Daxili İşlər Komissarlığın keçmiş əməkdaşları D.P.Vozniçuk (keçmiş baş həbsxana nəzarətçisi), Dudiyev, Xaldıbanov, Ananyev, Əliyev, Zahid Bağırovun şahidlik ifadələri təsdiqində öz əksini tapmışdır. M.C.Bağırov Azərbaycanın Ali Sovetinin Sədri Məcid Əfəndiyevi Azərbaycan Kommunist Partiyasının 13-cü qurultayının iclas çıxışlarında açıqca təhqir-şantaj edərək, qurultaydan dərhal sonra -1937-ci ilin 24 iyununda Sumbatovun əli ilə həbs etmişdir. Onu hökumətə qarşı əksinqilabi fəaliyyətdə günahlandıraraq dözülməz işgəncələrə məruz qoymuşdur. Və 1937-ci il 5-6 oktyabrda daxili işlər komissarlığının əməkdaşlarının apardığları və tərtib etdikləri istintaq protokollarına imza atan M.Əfəəndiyev əksinqilaba üzv olduqunu bildirmişdir. Ruhulla Axundov və başqaları ilə bərabər hökumətə qarşı təxribatçılıq işlərili apadığını etiraf etmişdir. Bu yalan ifadə məcburiyyət üzündən, ona qarşı edilən amansız işgəncələr nəticəsində baş vermişdir. M.Əfəndiyevlə bərabər keçmiş orqan işçisi Pavlova da amancız işgəncələr verilmişdir. Nəhayət, M.Əfəndiyevin müqəssir olduğuna “sübut” kimi Ruhulla Axundovun və digərlərinin saxtalaşdırmış sənədlərinə əsasən. M.Əfəndiyev 1938-ci ildə güllələnib.

Məyər bu taaarixin yaddaşı saxtadır?

Ya təhrif edilib?

Əsla! Çünki, Azərbaycanın namuslu ziyalılarına qarşı bu qara tarixi birbaşa yaradan, yalnız M.C.Bağırov olub.

ARBS.

İstintaq müəyyənləşdirdi ki, Beriyanın köməkliyi ilə Azərbaycanda rəhbər vəzifəyə yüksəlmiş Bağırov, Beriyanın Gürcüstanda etdiyi kimi, daxili işlər nazirliyi və dövlət təhlükəsizlik orqanlarında rəhbər işlərə, qabaqlar törətdiyi cinayət əməlləri ilə onunla sıx bağlı olan ünsürləri təmin edirdi. Bağırov məhbuslardan yalan ifadələr almaq iəqsədilə verilən işgəncə və cəzalarda bilavasitə iştirak edirdi.

Eləcə də müəyyən olunub ki, Bağırov öz əlaltılarına günahsız adamlar barədə məhkəmə işlərinin kütləvi şəkildə saxtalaşdırılması barədə birbaşa göstəriş verirmiş. Bağırovun bu cinayətkar göstərişini yerinə yetirməklə onun əlaltıları yalançı ittiham dəlilləri yaratmağa nail olurdular. Kolxozçuları hər hansı əksinqilabi fəaliyyətdə ittiham etmək məqsədilə Bağırovun əlaltıları bu şəxslərin həyətinə, evlərinə gizlicə silah qoyurdular, beləliklə də həmin kolxozçuların üsyançı təşkilatlarda iştirakını sübut etmiş olurdular. Həmin kolxozçuların evində axtarış aparılır, silah «aşkara çıxarılır», bu da adamların həbs olunması üçün əsas olurdu. Sonra həbs olunanlar döyülür, onlara işgəncə verilir, nəticədə onlardan əksinqilabi təşkilatda iştirakları barədə yalan ifadələr alınırdı. Bu cür cinayətkar metodlarla Şamaxı, Əli Bayramlı, İsmayıllı, Salyan və Azərbaycanın digər rayonlarının yüzlərlə sakini barədə cinayət işləri saxtalaşdırılmış, həbs edilənlərin böyük hissəsi güllələnmişdi.

Bağırov və əlaltıları tərəfindən neft mədənlərində, Xəzər gəmiçiliyində, Azərbaycanın kənd rayonlarında namuslu kadrlara kütləvi şəkildə divan tutulurdu.

Eyni zamanda Bağırov və Beriya əsl əksinqilabçıları, o cümlədən xarici kəşfiyyatın agentlərini məsuliyyətdən uzaqlaşdırırdılar.

...Mən belə başa düşürəm ki, istintaq materiallarına əsasən, M.C.Bağırov normal insaniyyətdən çox uzaq olub. Axı o, istədiyi dövlət zirvəsində idi. Əlbəttə, Stalinizmin "tunc kolgəsi-koləsi" Beriyanın vasitəsi ilə. Və qatı qərəzçi Beriyanın əsas marağının hədəfinin mənası-məqsədi nə idi? Gürcüstan versiyasının acınacaqlı səhnələri sayəsində hansı və necə bir nəfsinə nail olmağa çalışmışdır?! Məsum insanların kütləvi rəzalətlərə düçar edilməsi, onun nəyinə lazım idi? Yoxsa bu, onun iblis hobbisi olmuşdu? Və onun "cinayətkar məktəb"ini təkrarlayan M.C Bağırov...

Şantaj etdiy ləyaqətli insanları məhv etməkdən ötrü, canavar əlaltılarına- Sumbatov, Yemelyanov, Kolya Musatovun, Tsinmanın və başqa azğın, quduz itlərinin vasitəsilə necə işgəncələr verdiyi, sahidlərin etiraflarında vərəqlənir. M.C.Bağırov bu quduz itləri hər zaman zəncirləri ilə halqalamış və bütün qərəzli-şəxsi düşmən ambisiyalarını, hətta özünün də iştirakı ilə həyata keçirmişdir.

M.C.Bağırov nələ 1921-ci ildə Azərbaycan Fövqəladə Komitəsinin sədri olduğu zaman bilirdi ki, Beriyanın musavat əkskəşviyyatı ilə bağlı cinayət işləri vardır. Və onun cinayətkar keçmişini gizlətməyə çalışmışdır. Bağırov aydın bilirdi ki, Beriya musavat əkskəşfiyyatına kommunist partiya və ya digər inqilabi təşkilatlardan göndərilməmişdir. O, ingilislərin nəzarətində altında fəlaiyyət göstərən musavat əkskəşviyyatına öz xoşu ilə qoşulmuş və inqilabi fəhlə hərkatına qarşı fəal mübarizə aparmışdır. Bağırov Beriyanın cinayətkarlıqlarından xəbər tutan bütün insan-

ları aradan götürməyə çalışaraq, onun sənədlərini məhv etmiş və Baeriyaya ötürmüşdür. Daxili və Təhlükəsiz orqanlarda çalışan öz adamlarının dəstəklərindən sui-istifadə etmişdir.

Bağırov və onun əlaltıları günahsız insanların guya ki, Beriyaya, Bağırova Sumbatova -Topuridzeyə qarşı terroçuluq aktları hazırlanması barədə yalan ifadələr verməyə məcbur edirdilər. Bağırov öz məsləkdaşları-keçmiş menşevik Sumbatov-Topuridze, eləcə də bu iş üzrə müqəssir bilinən Atakişiyev, Markaryan, Qriqoryan, Borşev və Yemelyanov yüzlərlə, minlərlə insana divan tutulmasına səbəb olmuşlar.

Bu yolla əksinqilabi fəaliyyətdə günahlandırılan və qətlə yetirilənlər arasında Azərbaycanın MK katibləri Ruhulla Axundov, Əliheydər Qarayev, ZSFSR XKS-nın keçmiş sədri Qəzənfər Musabəyov, sədr müavini Mirzə Davud Hüseynov, Azərbaycan əkinçilik üzrə keçmiş xalq komissarı Heydər Vəzirov, Azərbaycan xalq komissarları sovetinin keçmiş sədri Dadaş Bünyadzadə, Azərbaycan MİK sədri Sultan Məcid Əfəndiyev, Azərbaycan XKS sədri Hüseyn Rəhmanov, Azərbaycan kommunal təsərrüfat üzrə xalq komissarı Həmid Sultanov, Azərbaycan XKS müavini Xəlilov, Azərbaycan Xalq Maarif komissarı Güvarlinski, Azərneftin keçmiş rəisi Barinov, Xəzər gəmiçiliyi idarəsi siyasi şöbəsinin rəisi Həsən Rəhmanov, Azərbaycan Fövqəladə Komitəsinin keçmiş sədri baba Əliyev və başqaları.

...Azərbaycanın yüksək dövlət insanlarına, yazar-şair və bir çox müxtəlif sahənin ziyalılarına, eyni zamanda rayon-kənd bölgələrinin adi kolxozçularının da həyatına qarşı kütləvi şantaj-terror etmək, axı onun hanısı marağına xidmət etmişdir? Guya özü və Sumbatyanlara qarşı terror qəsdində olublar?

Əslində, Bağırov-Beriya cütlüyü əlaltılarını kütləvi qətllərin ssenarisinə cəlb edərək, sovet hökumətinə qarşı böyük xəyanətləri törədiblər.

1953-cü ilin iyununda L.P.Bariyanın xarici kapitalın mənafeyi naminə sovet dövlətini sarsıtmaq, hakimiyyəti ələ almaq, sovet fəhlə-kəndli quruluşunu dağıtmaq, burjua hakimiyyətini bərpa etmək məqsədilə SSRİ hökumətini və Sov.İKP –ni Daxili İşlər Nazirliyindən asılı vəziyyətə salmaq cəhdləri dövlət, partiya əleyhinə cinayətkar fəaliyyət kimi MK tərəfindən ifşa edilmişdir.

SSRİ Ali Sovetinin 1953-cü il 8 avqust tarixinə müafiq olaraq Beriyanın və onun əlaltılarının işi baxılmaq üçün SSRİ Ali Məhkəməsinə göndərilmişdir.

1953-cü il dekabrın 23-də SSRİ Ali Məhkəməsi Vətənə xəyanət və digər ağır dövlət cinayətləri törətdiklərinə görə Beriya və onun yaratdığı xəyanətkar qrupun digər fəal üzvləri: Merkulov, Dekanorov, B.Kabulov, Qoqlider,Meşik, Vlodzimirski ən böyük cəzaya – güllələnməyə məhkum edildilər.

Beriya və onun əlaltılarının ifşası ilə əlaqədar olaraq, sui-qəsdçi qrupun başçılarının Beriyanın digər həmməsləkləri ilə əlaqələri araşdırılmağa başladı. Məlum oldu ki, xalq düşməni Beriyanın ən yaxın və məslək dostu uzun illərdən bəri cinayət fəaliyyətdə onunla sıx tellərlə bağlı olan, bu iş üzrə müqəssir hesab edilən M.C.Bağırovdur. Göstərilənlərə əsasən, M.C.Bağırov həbs olunmuşdur.
ARBS.

MÜTTƏHİM BAĞIROVUN CİNAYƏTKAR KEÇMİŞİ BARƏDƏ

İstintaq müəyyənləşdirib ki, Bağırovun cinayətkar əksinqilabi fəaliyyəti hələ 1917-ci il fevral inqilabından dərhal sonra Qubada yaşadığı illərdə başlanıb.

Bağırov bu cinayətkar fəaliyyətini ciddi-cəhdlə ört-basdır eləməyə çalışaraq özünü 1917-ci ilin martından partiyanın üzvü, Qubada Sovet hakimiyyəti qurulmasında fəal iştirakçı, 1917-1921-ci illərdə əksinqilaba qarşı fəal mübariz kimi qələmə vermişdir.

Lakin müəyyən edilmişdir ki, Bağırov 1917-ci ildə partiyanın üzvü olmamışdır.

Bağırovun anket, tərcümeyi – hal və digər sənədlərində partiya sıralarına daxil olmaq üçün ona zəmanət verənlər kimi göstərilən N. A. Abramova, A. A. İnozemtseva, V. S. Narçemaşvili bildirdilər ki, Bağırov 1917-ci ildən partiyanın üzvü olmamışdır, onlar da ona zəmanət verməmişlər. 6 №-li xüsusi şöbənin kommunist özəyinin və 1 atıcı diviziyanın inqilabi tribunalının ümumi yığıncağının 1921-ci il 16 noyabr tarixli protokolunda Bağırovun dilindən yazılıb ki, o, partiyaya Bakı şəhərində, 1918-ci ilin iyununda daxil olub. Bütün digər sənədlərdə isə partiyaya daxil olma tarixi 1917-ci ilin martı, yeri isə Quba şəhəri göstərilir.

Bu məsələ ilə bağlı sorğuya müttəhim Bağırov bir-birilə düz gəlməyən dolaşıq bir ifadə verib bildirdi ki, heç özüm də bil-

mirəm, necə olub ki, mən sənədlərdə 1917-ci ildən partiyanın üzvü kimi qeyd olunmuşam.

Bağırov bir sıra şəxsi sənədlərdə qeyd edirdi ki, 1917-ci ilin payızından ta 1918-ci ilə qədər o, Qubada olub, guya orada Qubanın komissarı, görkəmli müsavatçı, çar hakimiyyəti zamanı keçmiş polis rəisi, iri mülkədar, kapitan Zizikski və digər qubalı irticaçılara qarşı fəal mübarizə aparıb.

Müəyyən olunub ki, Bağırovun verdiyi bu məlumatların hamısı yalandır. O nəinki Zizikskiyə və digər irticaçılara qarşı mübarizə aparmayıb, əksinə, Zizikskinin tam himayədarlığı altında işləyərək onun köməkçisi olub. Sonralar o özü Zizikskiyə hərtərəfli havadarlıq və yardım göstərərək, onun üzə çıxmasına, bəraət almasına kömək etmişdir. Bağırovun evində axtarış zamanı onun Zizikski ilə birgə xidməti barədə arxiv sənədlərinin surəti aşkara çıxarıldı.

Sənədlərlə sübut edilmişdir ki, Bağırov 1917-ci ildə Qubada müəllim işləyərkən, fevral inqilabından sonra yəhudi qəsəbəsinin milis rəisi vəzifəsinə təyinat alır, sonra isə qəza komissarı Əlibəy Zizikskinin köməkçisi vəzifəsinə təyin və təsdiq olunur. 1917-ci il noyabr ayının sonunudək bu vəzifədə işləyir. Zizikskinin digər köməkçisi, Bğırovun göstərdiyi kimi, mülkədar, irticəçi, müsəlman ruhaniləri ilə sıx bağlı olan Qazi Əhməd bəy Məmmədbəyov idi. Sənədlərlə müəyyən olunmuşdur ki, Zizikski Bağırovu hərtərəfli müdafiə edirdi. Bakının müvəqqəti qubernatoruna ünvanlanmış 1 iyun 1917-ci il tarixli 878 №-li məktubda ZİZİKSKİ y a z ı r d ı:

«Quba şəhərinin 2-ci hissəsinin müvəqqəti komissarı Mir Cəfər Bağırov İcraiyyə komitəsinin bu ilin 10 may tarixli qərarı ilə Quba qəza komissarının köməkçisi vəzifəsinin icrasına başlamışdır. Bağırov bu təyinata tamamilə uyğun gəldiyi üçün, İcraiyyə komitəsi onun qəza komissarının köməkçisi vəzifəsinə təsdiq olunmasını xahiş edir».

Vaxtilə Bağırovun katibi işləmiş **şahid** ŞAHVERDİYEV HACIAĞA İBRAHİM oğlu b i l d i r i r d i:

«1917-ci il inqilabından sonra Qubada Əlibəy Zizikskinin rəhbərlik etdiyi qəza komissarlığı yaradıldı. Zizikskinin müavini Bağırov idi. Zizikski varlı Quba mülkədarı və köhnə ordunun zabiti idi. Zizikski və Bağırovun başçılıq etdiyi Quba qəza komissarlıbı yerli mülkədarlar və varlılar tərəfindən yaradılmışdı və əksinqilabi xarakter daşıyırdı. Bu, seçkili orqan deyildi, belə ki, orada işləyənlərin hamısı yerli mülkədarlar və qolçomaqlar tərəfindən təyin olunurdu. Qubada qəza komitəsinin ömrü uzun olmadı. Ondan sonra Qubada hakimiyyətsizlik, başsızlıq hökm sürdü, bu da müxtəlif bandaların, soyğunçuluq və qarətlərin meydana çıxmasına səbəb oldu».

Beləliklə, Bağırov nəinki Zizikskiyə mübarizə aparmayıb, əksinə, cinayətkar əməllərinə görə *(mili ədavət törətmək, 1917-ci ildə mili qırğın cəhdləri, rus kəndlərinin dağıdılması və s.)* Zizikski ilə birlikdə məsuliyyət daşıyır.

Bağırov öz tərcümeyi-halında yazırdı ki, Quba qəzasında əksinqilabçı ünsürlürlü mübarizə apararkən o, guya ki, «uçağan» adlanan dəstə yaradıb. Daha sonra Bağırov göstərirdi ki, əksinqiləbçılarla mübarizəsini o, keçmiş polis idarəsini, silah gəbbəxanasının dağıdılmasından başlayıb, sonra isə «uçağan» dəstənin digər üzvləri ilə birgə bəyləri və onların tərəfdarlarını məhv etməyə başlayıb.

İstintaq zamanı Bağırov bu ifadələrdən imtina etdi və göstərdi ki, o heç bir bəy və onun əlaltılarını «uçağan» dəstənin digər üzvləri ilə birgə öldürməyib, əksinqiləbçılar üzərinə silahlı basqın etməyib, cəbbəxananı, təchizat bazasını da dağıtmayıb.

İstintaq materialları ilə sübuta yetirilib ki, Bağırovun bir sıra sənədlərdə partizan dəstəsi adlandırdığı «uçağan» dəstənin inqilabi fəaliyyətə heç bir dəxli yox idi, əsl quldur dəstəsi idi. Bu bandit qrupuna Bağırov başçılıq edirdi. O, Qubada sovet hakimiyyəti qurulan vaxt, sonralar öz şəxsi sənədlərində yazdığı kimi, nəinki heç bir inqilabi fəaliyyət göstərməyib, əksinə, bandit qrupuna başçılıq edib.

«U ç a ğ a n» dəstəni, eləcə də Bağırovun Quba qəzasındakı cinayətkar fəaliyyətinin **şahidi** Qasımov Əziz Məcid oğlu belə xarakterizə edirdi:

«Mən bilirəm ki, Bağırov Xaçmaz rayonunda müəllim idi. 1917-ci ilin fevral inqilabından sonra Bağırov birdən-birə qəza komissarı Ə. Zizikskinin müavini oldu. Ə. Zizikski Bağırovla birgə bütün qəzanı və Quba şəhərini idarə edirdi. Bağırov Zizikski ilə birgə cəbhədən geri dönən əsgərlərin silahlarını əllərindən alırdı, bu da qan tökülməsinə səbəb olurdu. Məsələn, 1917-ci ilin payızında Xaçmazda olduğu kimi. Əsgərlərdən alınmış silahla onlar qolçomaq ünsürləri və müxtə-

lif cinayətkar elementləri mülkədar hakimiyyətini saxlamaq üçün silahlandırdılar. Zizikski ilə Bağırov nə istəyirdilərsə, onu eləyirdilər, onların hər biri öz ətrafına öz adamlarını yığmışdı. Bağırov cinayətkarları və bəyləri öz əhatəsinə almışdı».

Bağırovun və onunla bağlı şəxslərin, Bağırovun sözləri ilə desək, **«partizan dəstəsi»**nə daxil olan şəxslərin fəaliyyətinin xarakteri barədə isə **şahid** Qasəmov deyirdi:

«Bu qoçular və onların başçısı Bağırov soyğunçuluqla məşğul olaraq əhalinin hesabına yaşayırdılar».

İstintaq zamanı dindirilən, əsli-kökü Qubadan olan və Qubada yaşayan **şahid** A.N.Orucov Bağırovun və əlaltılarının hərəkətləri ilə bağlı aşağıdakıları dedi:

«Dəqiq deyə bilmərəm, hansı ildə, ya 1917, ya da 1918-ci illərdə Qubada Bağırova ən yaxın adamlar bunlar idi:

Mustafa Qulu Bağırov – Bağırovun qohumu, qabaqlar dəmirçi işləyən qoçu Əbdürəhman Nəcəfov – Bağırovun ən yaxın adamı, Quba üzrə «şəxsi mühafizi», Tahirov Mirzə Baba Hüseyn Qulu oğlu, Məşədi Musa Hacı İmam oğlu və familiyalarını unutduğum bir sıra şəxslər. Bütün bu şəxslər dəstə, qrup yaratmışdılar, onlara Mir Cəfər Bağırov başçılıq edirdi.

Bağırovun başçılıq etdiyi bu qrupp əhalidən silahı alıb, qarət, soyğunçuluq, qətllərlə məşğul olur, Quba əhalisinə qarşı terrorçuluq edirdilər, nəticədə bütün Quba əhalisi onlardan qorxurdu. Bu qruppa daxil olanlardan çoxusu qabaqlar

müxtəlif cinayətkar əməllərə görə həbs olunmuş şəxslər idi. Ancaq onlardan hansının və neçə illiyə həbs cəzasına məhkum olunduqlarını dəqiq xatırlamıram. Bu qrupp faktiki olaraq heç vaxt heç bir siyasi məqsəd güdməyən adi cinayətkar bandit dəstəsi idi. Bir daha təkrar edirəm, rəhbəri, başçısı da Mir Cəfər Bağırov idi».

Bağırovun şəxsi sənədlərində *«u ç a ğ a n p a r t i z a n d ə s t ə s i»* adlandırdığı bandit qrupunun cinayətkar fəaliyyəti barədə buna bənzər ifadələri istintaq zamanı şahid sifətilə dindirilən Ağaxanov Harun Şahbala oğlu, Şahverdiyev Hacı Ağa İbrahim oğlu, Musayeva Q. M., Ağayeva İ. D. və başqaları da təsdiq etdilər.

İstintaq, Bağırovun guya 1917-18-ci illərdə inqilabi fəaliyyətlə məşğul olması barədə məlumatının da yalan olduğunu aşkara çıxartdı. İşlə bağlı sənədlərdən aydın olmuşdur ki, 1918-ci ilin martında Qubada Sovet hakimiyyəti qurulmasında Bağırovun heç bir iştirakı olmayıb. Şahidlərin ifadələrindən aydın olur ki, Qubada Sovet hakimiyyəti Xaçmaz stansiyasına Sturuanın başçılıq etdiyi dəstənin gəlişindən və onun Qubaya getməsindən sonra elan olunub. Bağırova gəldikdə isə, onun Qubada Sovet hakimiyyəti qurulması ilə heç bir əlaqəsi yoxdur.

Eyni zamanda müəyyən olunmuşdur ki, Bağırov və onun «uçağan» dəstədən olan yaxın adamları cinayətkar əksinqilabi *«D a ş n a k s u t y u n»* təşkilatının rəhbərlərindən olan, Quba şəhəri əhalisinin kütləvi şəkildə qırılmasının və orada soyğunçuluq və qarətlərin törədilməsinin təşkilatçısı kimi tanınmış Amazaspın daşnak dəstəsinin üzvü olmuşlar.

Bağırov bu məsələ barədə dindirilərkən boynuna aldı ki, o, dörd yoldaşı ilə birgə Amazaspın dəstəsində olub. Lakin Bağırov bu faktı belə izah etdi ki, o, bu dəstəyə köhnə kommunist Naneyşvili tərəfindən göndərilib və qırğının, qarət və soyğunçuluğun yalnız şahidi olub. Guya o, Amazaspın dəstəsinə bir kommunist kimi, vəhşiliklərin nisbətən az törədilməsinə çalışmaq üçün göndərilib. Lakin müəyyən olunub ki, bu dövrdə Bağırov heç kommunist partiyasının üzvü olmayıb, Amazaspın dəstəsinə də partiya təşkilatının nümayəndəsi kimi göndərilə bilməzdi.

Bununla bərabər, müəyyən olunmuşdur ki, Amazaspın dəstəsinin digər üzvləri ilə birgə qətl və qarətlərdə iştirak etdiklərinə görə Bağırov və onun dörd əlaltısı Azərbaycan KP-nın rəhbər işçilərindən biri olan Levon Qoqoberidze tərəfindən həbs olunub türməyə salınmışdır.

Bağırovun həbsdən hansı şəraitdə azad olunması istintaq tərəfindən aşkara çıxarılmayıb. Müttəhim Bağırov Levon Qoqoberidze tərəfindən həbs olunması faktını danmır, lakin bunu Qoqoberidze tərəfindən buraxılmış səhv hesab edir və göstərir ki, onu həbsxanadan 1918-ci ilin iyulunda Bakıya gələn *«r u s l a r d a n i b a r ə t r o t a»* azad edib.

Öz şəxsi sənədlərində Bağırov təsdiq edirdi ki, guya Nuru Paşanın Qarabağda qaldırdığı üsyanın yatırılmasında iştirak edib. Guya bunun üçün üsyan edənlərin arxasında qırmızı qiyam təşkil edib. İstintaq müəyyən edib ki, Bağırovun bu ifadəsi də tamamilə uydurmadır.

Şahidlərdən Q. M. İbrahimovun və başqalarının verdiyi ifadələrdən aydın olur ki, 1920-ci ilin may-iyun aylarında Bağırov həqiqətən Qarabağda, Şuşada olub. Lakin türk emissarı Nuru Paşanın qaldırmağa cəhd göstərdiyi qiyamın yatırılmasında Bağırovun heç bir rolu olmayıb.

Öz cinayətkar keçmişini gizlədən Bağırov qabaqca hərbi tribunal orqanlarına, sonra isə çekist orqanlarına yol tapıb.

İstintaq materialları arasında Qafqaz diyar komissiyasının partiyanın təmizlənməsi üzrə 1 – 5 yanvar 1922-ci il tarixli yığıncağının protokolundan arxiv çıxarışı vardır. Həmin yığıncaqda Bağırovun məsələsi müzakirə olunub. Qafqaz diyar komissiyasında Bağırova Qubadan olan şübhəli elementlərlə əlaqəyə, məhbusları döyməyə və digər hərəkətlərinə görə şiddətli töhmət elan edilmişdi.

MK-nın Serqo Orconikidzenin sədrliyi ilə keçən 1 oktyabr 1929-cu il tarixli yığıncağında Bağırovun nəzərinə çatdırılmışdır ki, Baş Siyasi İdarə orqanlarındakı yolverilməz cəza metodlarına *(məhbusların öldürülməsi, onların guya günahkar olması barədə materialların saxtalaşdırılması)* qarşı heç bir tədbir görməmişdir, bu hərəkətlər bir daha yol verilərsə, bütün məsuliyyəti özü daşımalı olacaqdır.

Sov.İKP MK-nın 1930-cu il qərarı ilə Bağırov Azərbaycan respublikası Baş siyasi idarəsinin sədr vəzifəsindən azad olundu. Sonra Beriyanın köməyi ilə Bağırov yenidən Azərbaycanda məsul vəzifəyə qayıtmağa nail oldu. Bu barədə aşağıda ətraflı söhbət açılır.
ARBS.

MÜTTƏHİM BAĞIROVUN BERİYA İLƏ CİNAYƏTKAR ƏLAQƏLƏRİ

Sübut olunmuşdur ki, Beriyanın müsavat əksinqilabındakı xidmətindən xəbərdar olan Bağırov, öz keçmişini gizlətməkdə Beriyaya hər cür yardım etmiş, bunun üçün arxivlərdən oğurluq etməkdən, ifşaedici sənədləri Beriyaya göndərməkdən, hətta Beriyanın keçmişini üzə çıxara biləcək şəxsləri aradan götürməkdən belə çəkinməmişdir.

Beriya öz işi üzrə məhkəmə istintaqı zamanı müsavat əkskəşfiyyatdakı xidməti barədə d e m i ş d i:

«…deməliyəm ki, mənim ən ağır cinayətlərimdən biri… mənim müsavat əkskəşfiyyatında iştirakımdır».

Bu barədə istintaq olunan müttəhim Bağırov «Beriyanın müsavat əkskəşfiyyatında xidməti barədə nə vaxt xəbər tutmusan?» sualına ilk dəfə belə cavab v e r d i:

«Beriya müsavat hökuməti əkskəşfiyyatında xidməti barədə mənə heç bir söz deməmişdi. O mənə danışmışdı ki, guya bizim bolşevik təşkilatının göstərişi ilə kəşfiyyat xarakterli tapşırıqları yerinə yetirir. Ancaq bu tapşırıqların mahiyyəti barədə o heç bir şey deməmişdi. Beləliklə, Beriyanın müsavat əkskəşfiyyatında xidməti barədə mən ilk dəfə 1937-ci ildə eşitmişəm».

Bağırovun bu ifadəsi istintaq işinin bütün materialları ilə təkzib olunur. Müəyyənləşdirilmişdir ki, Bağırovun sərəncamında

Beriyanın müsavat əkskəşfiyyatındakı fəaliyyəti faktını təsdiq edən əsas arxiv sənədləri var idi. Azərbaycan FK-nın sədri olan Bağırov Beriyanın müsavatçıların Azərbaycanda hakimiyyəti dövründə kommunist partiyasının üzvü olmaması, beləliklə də müsavat əkskəşfiyyatında işləmək üçün gizli bolşevik təşkilatı tərəfindən göndərilə bilməsini təsdiq edən çoxlu şahid ifadələrinə və geniş məlumatlara malik olmaya bilməzdi.

Beriyanın müsavat əkskəşfiyyatındakı əksinqilabi fəaliyyətinin şahidləri onu ifşa edən məlumatlarla çıxış edəndə Bağırov tərəddüd etmədən Beriyanı fəal şəkildə müdafiə edir, beləliklə də onun cinayətkar keçmişini ört-basdır edirdi.

Azərbaycan FK-nın əməkdaşı, **ş a h i d** A.F.MİLOV g ö s t ə r i r d i:

«1922 və ya 1923-cü illərdə Azərbaycan FK-da işləyərkən mən Qolikovun rəis olduğu gizli əkskəşfiyyat şöbəsi ilə əlaqəli idim.

Keçmiş müsavat əkskəşfiyyatının işi ilə tanış olarkən müxtəlif sənədlərlə yanaşı müsavat əkskəşfiyyatının rəisi Aleksandr Qoqoberidzenin əmri əlimə keçdi. Bu əmrdə deyilirdi ki, L. P. Beriya Abşeron yarımadasının xarici nəzarəti üzrə bir aylıq sınaq müddəti keçməklə və aylıq maaşı 800 manat olmaqla əkskəşfiyyatçı vəzifəsinə qəbul olunur.

Mən həmin əmri götürüb Bağırovun yanına getdim. Sumbatov da onun yanında idi. Sumbatovun yanında mən A. Qoqoberidzenin əmrini aşkara çıxardığımı söylədim və əmri Bağırova verdim. Bağırov məni dinlədi, əmri götürdü və istehzayla gülümsünüb d e d i: «Biz bundan xəbərdarıq. Beriya oraya Bakı gizli partiya təşkilatı tərəfindən göndərilib».

Məlum olmuşdur ki, Beriyanın müsavat əkskəşfiyyatında xidməti barədə 1921-ci ilin dekabrında Azərbaycanda FK-da partiya təşkilatının təmizlənməsi zamanı da məsələ qaldırılmışdı. Bağırov o zaman da Beriyanı fəal müdafiə etmişdi.

Bağırov Beriyanın müsavat əkskəşfiyyatındakı xidmətini təsdiq edən arxiv sənədlərini müxtəlif yollarla əldə edərək, bu sənədləri Beriyaya göndərirmiş. Moskvada Beriyanın şəxsi arxivi araşdırılarkən, müsavat hökuməti daxili işlər nazirliyinin müsavat əkskəşfiyyatı işçilərinin işə qəbulu və işdən azad edilməsi barədə əmrlərdən ibarət 1919-cu ilin 13 avqustundan açılmış, 1920-ci ilin 1 martında sonra çatmış arxiv sənədi aşkara çıxarılmışdır. Bu sənədin 19-cu səhifəsində «əksinqilabla mübarizə təşkilatı» rəisinin 28 dekabr 1919-cu il tarixli 29 №-li əmrinin surəti yerləşdirilib. Əmrdə deyilir ki, agent Beriya 1920-ci ilin 1 yanvarından etibarən öz ərizəsinə əsasən tutdüğü vəzifədən azad olunur.

Eyni şey 1920-ci il 8 yanvar tarixli əmrdə də *(həmin sənədin 21-ci səhifəsində)* göstərilir. Burada 11 müxtəlif familiyalı şəxsin arasında Beriyanın əlinə necə keçməsi barədə suala elə həmin sənədin arasına Beriyanın öz dəst-xətti ilə yazıb qoyduğu kiçicik bir kağız parçası cavab verir. Orada aşağıdakı sözlər y a z ı l ı b:

«Yoldaş Bağırov göndərib»

Tarix: «I-XII-1939-cu il»

Bu məsəl ilə bağlı istintaq olunan müttəhim Bağırov ilk əvvəl bildirdi ki, müsavat əkskəşfiyyatındakı xidməti barədə arxiv sənədlərini Beriyaya verib – vermədiyini xatırlaya bilmir. Həmin sənədlərin fotosurəti göstəriləndən sonra isə b i l d i r d i:

«Həmin sənədlər mənə tanışdır. Əgər bu materiallar Beriyayadan çıxmışsa, deməli, onları mən ona vermişəm. Ancaq hansı şəraitdə vermişəm, xatirəmdə deyil».

Beriya və onun yaxın əlaltılarının işi barədə istintaqın gedişində sübut olunmuşdur ki, öz müsavatçı keçmişini aşkara çıxarılacağından təlaşa düşən Beriya, o vaxtlar köməkçisi olan Merkulovu Beriyanın müsavat əkskəşfiyyatında xidmətini təsdiq edən bütün arxiv sənədlərini yığmaq üçün xüsusi olaraq Bakıya göndərir.

Bağırov həmin sənədlərin axtarılması və arxivlərdən oğurlanmasında Merkulova fəal yardım göstərmişdir.

MERKULOV bu barədə d e y i r d i:

«Hələ Tbilisidə olarkən Beriya məni yanına çağırdı və dedi ki, onun düşmənləri belə bir şayiə yayırlar ki, guya o, müsavat əkskəşfiyyatında xidmət edib. Əslində isə o, bolşeviklərə ruhən yaxın olan «Hümmət» Bakı təşkilatının üzvü olub. Hafizəm məni aldatmırsa, müsavat əkskəşfiyyat xidmətini Beriya tamamilə danırdı.

Beriya Bakıya uçmağı və partiya arxivində ona bəraət verici sənədləri axtarıb tapmağı xahiş etdi. Düşmənlərin həmin sənədləri ələ keçirəcəyindən qorxurdu.

Mən Bakıya uçdum, Bağırovun yanına gedib Beriyanın tapşırığını ona çatdırdım. Xatirimdədir ki, Bağırov partiya tarixi arxivinə zəng vurub mənə kömək göstərilməsini tapşırdı. Mən arxivdən iki sənədlər qovluğu tapdım. Bu sənədlə-

rin məzmunun mən dumanlı şəkildə xatırlayıram. Sənədlərin mənə verilməsi barədə Beriyadan rəsmi məktub gətirməmişdim, ancaq sənədləri götürən zaman haradasa imza qoymağım yadıma gəlmir.

Tiflisə qayıdandan sonra, mən Bakıdan gətirdiyim sənədləri Beriyaya verdim. O, sənədlərə baxıb razı qaldığını bildirdi və onları öz seyfində gizlətdi».

Beriya həbs olunarkən evində aparılan axtarış zamanı onun müsavat əksinqilabında xidmətini təsdiq edən, Merkulov və Bağırov tərəfindən partiya tarixi arxivində oğurlanmış sənədlər aşkara çıxarılırdı.

İstintaq Bağırovun Beriyanın xəyanətkar keçmişini ört-basdır etməkdə fəal iştirakçı olması barədə digər faktları da aşkara çıxardı.

Şahid A. İ. TAHİROV deyirdi:

«Bağırovu mən 1921-ci ildən tanıyırdım, sonrakı illər ərzində onunula iş prosesində qarşılaşırdım. Bizim münasibətlərimiz yaxşı idi, odur ki, bir-birimizin evində də olurduq.

1923-cü ildə bir axşamçağı Bağırov və o vaxt Azərbalıq idarəsinin sədri Baba Əliyev bizim bağa yığışmışdılar. Biz şam etdik və bir qədər də içdik. Söhbət əsnasında Baba Əliyev Bağırovdan soruşdu ki, nə üçün o, Beriyanın müsavat zamanı ingilis əkskəşfiyyatındakı xidmətindən xəbərdar ola-ola onu işə götürüb və gündən-günə də vəzifəsini yüksəldir. Bağırov cavab verdi ki, Beriya əkskəşfiyyata gizli partiya təşkilatının

tapşırığı ilə göndərilib. Baba Əliyev buna etiraz etdi və dedi ki, o, gizli təşkilatda çalışanların hamısını tanıyır, Beriya onların arasında olmayıb, o, əsl əkskəşfiyyatçıdır».

Nəticədə Baba Ədiyev Bağırovun göstərişi ilə həbs edildi və saxtalaşdırılmış məhkəmə işi əsasında güllələndi.

Müəyyənləşdirilmişdir ki, Bağırov Beriyanın müsavat əkskəşfiyyatında xidmətindən xəbəri olan və ona siyasi inamsızlıqla yanaşan bir çox köhnə kommunistlərə divan tutmuşdur.

«1932-ci ildə Ulyanov, Pleşşakov və mən Bakıdakı klublardan birində olarkən eşitdik ki, Beriya Zaqafqaziya vilayət partiya komitəsinin katibi təyin olunub.

Beriyanı şəxsən tanıdığımız üçün narazılığımızı bildirdik və belə hesab etdik ki, keçmiş müsavat polisində xidmət etdiyi üçün Beriya bu cür məsul vəzifəni tuta bilməz.

Bizimlə bir yerdə olan Terequlov söhbətlərimizi Bağırova çatdırmışdı.

Məlumdur ki, 1935-ci ildə Beriyanın müəllifi olduğu «Zaqafqaziyada bolşevik təşkilatının tarixindən» adlı kitab çıxmışdı. Şəxsən mənə neft mədənlərində keçirilən iki partiya yığıncağında həmin kitabın öyrədilməsini təşkil etmək tapşırılmışdı. Mən müxtəlif bəhanələrlə bu işdən imtina etdim. Bağırov məni yanına çağırıb üstümə çığırdı, dedi ki, siz köhnə partiyaçılar başınızdan böyük işlər görürsünüz, Beriya və mənim barəmdə çox çərənləyirsiniz, dilinizi dinc qoymasanız, başınıza bəla olacaq.

Bir qədər sonra həmin adamlar həbs edildi və güllələndi».

Azərbaycan Xalq Komissprları Soveti yanında baş arbitr vəzifəsində işləyən Dövlətov İsay İvanoviç 1937-ci il iyunun 12-də Sumbatov tərəfindən Bağırova qarşı terrrorçuluq aktının nəzəriyyəsini hazırlayan «fəal trotskiçi-terrorçu» kimi həbs olundu. Dövlətovun həbs olunmasının əsas səbəbi isə onun **Beriyanı müsavat əkskəşfiyyatının agent-təxribatçısı** kimi tanıması olmuşdur. Bu barədə M. MANUÇAROVUN **ş a h i d** i f a d ə s i n d ə n:

«Qrupumuzun üzvü Novikov müsavat polisi tərəfindən yaxalanmış, bir qədər sonra isə dar ağacından asılmışdı, biz isə gizlənə bilmişdik.

Bu hadisədən bir qədər əvvəl, müsavat axtarış polisi tərəfindən gizli təşkilatın bir üzvü, guya «erməni taciri» olması barədə sənədi olan Aleksandr Baqdasarov həbs olunmuşdu.

Gizli təşkilat üzvlərindən biri olan Novikov «r u s t a c i r i» kimi axtarış polisi əmkdaşlarından biri ilə dil tapa bilmiş, onun vasitəsilə də Baqdasarovla görüşə bilmişdi. Baqdasarovla görüşdən sonra Novikov bizə danışdı ki, Saşa bizi ehtiyatlı olmığı çağırır və xəbərdarlıq edir ki, axtarış polisində xidmət edən bir gürcü bizi məhv edə bilər.

Baqdasarovun əlində «erməni taciri»nə məxsus sənəd oduğundan rüşvət verib onu məhbəsdən qurtardıq, həbsdən çıxandan sonra Baqdasarov bizə danışırdı ki, polisdəki gürcü onun yanına gəlib o vaxtlar Vilayət partiya komitəsinin katibi olan Dövlətov İsayın rabitəçisi olduğunu söyləyirmiş. Baqdasarov həmin gürcünün təxribatına uymayıb və Dövtətovla tanışlığını danıb.

Sonralar Bakıda sovet hakimiyyəti qurulandan sonra həmin gürcü əvvəl inqilab komitəsində, sonra isə FK-da işləməyə başladı. Onun adı Lavrenti Pavloviç Beriya idi. Bax, Beriyanın müsavat polisində xidməti ona görə bizə məlumdur».

İstintaq zamanı Bağırovun göstərişi ilə Dövlətov möhkəm əzişdirilirdi, bunu keçmiş «NKVD» əməkdaşları da təsdiq edirlər. Məsələn, **ş a h i d** KLİMENÇİÇİN d e d i k l ə r i n d ə n:

«Bağırov müstəntiq Qabrielyana əmr etdi ki, Dövlətovu döysün. Qabrielyan da Bağırovun yanında Dövlətovu döyməyə başladı.

İşgəncələrə dözə bilməyən Dövlətov nəticədə özünə və yoldaşlarına böhtan atılan istintaq protokollarını imzaladı. Məhkəmə zamanı isə verdiyi ifadələrdən imtina etdi.

1938-ci il aprelin 21-də saxtalaşdırılmış istintaq materiallarına əsasən Dövlətov güllələndi».

Bağırov Beriyanın müsavatçı keçmişindən xəbərdar olaraq cinayətlərini ört-basdır etmək üçün arxiv sənədlərini oğurlayıb, Beriyaya göndərməkdən, namuslu adamların həyatına qəsd etməkdən belə çəkinmirdisə, Beriya da öz növbəsində borclu qalmırdı, Bağırovun əməllərini ört-basdır edirdi.

Beriyanın şəxsi arxivində axtarış zamanı 19 may 1937-ci il tarixdə Bakıdan SSRİ XDİK-na göndərilmiş anonim məktub aşkara çıxarılmışdır. Həmin məktubda Bağırovun bir sıra cinayətləri, xüsusilə Azərbaycanın sovetləşməsi həyata keçirilən dövrdəki cinayətkar fəaliyyəti öz əksini tapıb. Məktubda g ö s t ə r i l i r d i :

«Hələ 1918-ci ildə, ağlı başında, kamil bir şəxskən, Bağırov burjuaziyaya xidmət edib. O, Quba şəhərində erməni əhalisinə divan tutulmasında məşhur olan Əlibəy Zizikskinin birinci müavini olub. Onlar əhalini qarət edirdilər… Bağırovun erməni qırğınında iştirakı Qubada hamıya məlumdur».

SSRİ XDİK-na ünvanlanmış bu məktubu Beriya xidməti sənədlər arasından götürmüş və öz şəxsi arxivinə qoymuşdur.

Artıq göstərildiyi kimi, 1921-ci ildən etibarən Bağırovun və Beriyanın butun cinayətkar fəaliyyəti qarşılıqlı yardım və himayədarlıq şəraitində keçirdi. Xatırlatdığımız kimi, 1921-ci ildə partiyanın kənar ünsürlərdən təmizlənməsi zamanı Bağırov Beriyanı, Beriya isə Bağırovu müdafiə məqsədilə çıxışlar etmişdi.

1922-ci ildə Beriya Azərbaycan FK-dan çıxarıldıqda, ümumiyyətlə FK orqanlarında işdən uzaqlaşdırıldıqda və ona cəza verildikdə Bağırov ona yaxşı bir xasiyyətnamə verib, Beriyanın Gürcüstanın Baş Siyasi İdarəsində işləməsini tövsiyə etdi.

1927-ci ildə Bağırov cinayətlərinə görə Azərbaycan FK-dan qovulandan sonra, Beriya 1929-cu ildə onun Azərbaycan BSİ-nin sədri vəzifəsində Azərbaycana qayıtmasına köməklik göstərdi. Bunun üçün 1929-cu ilin 15 iyununda, Azərbaycan KP MK-nın keçmiş katibinə məktub yazıb, Bağırova əla xasiyyətnamə verib və onun Azərbaycan BSİ-nin sədri vəzifəsinə göndərilməsi məsələsinin həllini tezləşdirməyi xahiş edirdi.

Beriya Bağırova Azərbaycan KP MK-nın katibi Qarayevə və Azərbaycan K(b)P MK-nın digər üzvlərinə qarşı intriqaçı mübarizəsində hərtərəfli yardım edirdi.

Bağırova himayədarlıq edən Beriya 1928-ci ilin mayında Serqo Orçonikidzenin adına xüsusi məktub yollayır, həmin məktubda Zaqafqaziya vilayət komitəsinin katibi Mamiya Oraxelaşvilinin və prezidiumun digər üzvlərinin Bağırova qarşı təxribatçı münasibətini sübuta çalışırdı.

Qeyd etməliyik ki, Beriyanın məktubunda adları çəkilən Zaqafqaziya vilayət komitəsinin bütün üzvləri – Oraxelaşvili, Qarayev, Mirzoyan, Rubenov və b. Bağırov və Beriya tərəfindən həbs edilmiş, sonra isə güllələnmişlər.

Beriyanın təşəbbüsü ilə 1933-cü ildə Rubenov Azərbaycan K(b)P MK-nın katibi vəzifəsindən azad edildi və onun yerinə Bağırov təyin edildi.

Bu barədə soruşduqda Bağırov belə cavab v e r d i:

«Rubenov Azərbaycan K(b)P MK-nın katibi vəzifəsindən azad edilərkən məndə belə bir təsürat yarandı ki, Beriyanın bu işdə böyük rolu var və bu işin əsas təşəbbüsçüsü, heç şübhəsiz, o özüdür…

Xatırımdadır ki, Rubenovun işdən azad edilməsi, onun yerinə mənim təyin olunmağım barədə məsələ müzakirə olunarkən, Serqo Orçonikidze Rubenovun azad olunması, bu işə mənim təyin olunmağıma etiraz etdi».

Beriya özü Bağırovun Azərbaycan K(b)P MK-nın katibi vəzifəsinə təyin olunması təfərrüfatını belə d ə q i q l ə ş d i r d i:

«Bəli, o vaxtlar Azərbaycan XKS-nın sədri vəzifəsində işləyən Bağırovu Azərbaycan KP-nın katibi vəzifəsinə mən namizəd göstərmişəm».

...Ümumiyyətlə, tarixi yazanda, mövcud zamanın əsil gerçəklərinin yazmaq lazımdır. Heç bir həqiqətə uyğun olmayan ziddiyyətli kadrlar ortaya çıxanda, həm araşdırmaçı üçün, həm də ümumi oxucu üçün anlaşılmazlıq çətinlikləri yaranır. Bu kitab Əkrəm Əylislinin "Hökmüranlar Allahdan qorxmur" başlıqı altında olan versiyalardır. Zaqafqaziyanı, eyni zamanda Azərbaycanı sovetləşdirmək təbliğat və təşkilində M.C.Bağırovun sağ-sol fəaliyyətləri, ümumiyyətlə nə işlə məşğul olduğu haqda məlumatlar və araşdırmalar əks olunur. Doğrudur, M,c, Bağırovun Azərbaycan xalqına qarşı xətaları adi deyil, həddindən artıq böyük cinayətkarlıqlardır. Lakin, elə versiyalar bəhs olunur ki, bu tarixin ağ yalanı kimi başa düşülür. Yəni M.C.Bağrovun Quba həyatı – Xaçmazda müəllimlik etməsindən sonra Quba qəzasının rəisi Zizinski fəaliyyətinə qoşulması, Zizinskinin isə Quba qolçomaqlarını, mülkədarlarını və bəylərini silahlandıraraq erməni ailələrinə qarşı amansız qətliamlar törətməsi inandırıcı deyil. **Bu tükürpədici səhifələr tarixi həqiqətlərmi?**

M.C.Bağırov Beriya təmasının hiylə-məkrli prinsipləri çox ağır cinayətlərdir. Bilmək olmur bu olaylar nə dərəcədə doğrudur?! Axı, M.C.Bağırovun yaxşı insan olduğunu da söyləyənlər az deyil. O zaman, bəs Azərbaycan xalqına-dövlət və ictimai xadimlərinə, yazar-şair zümrəsinə və minlərlə sadə insanlarına qarşı amansız işgəncələr verib, sondada güllələnməsinə əmr verən kim olub? **M.C.Bağırov olmayıb?**

SSRİ Ali Məhkəməsinin istintaq araşdırmalarında dindirilən şahidlərin bütün etirafları arxiv sənədləridir. Bu versiyalara yalan-saxta demək mümkünmü?

Beriyanın həbsindən sonra onun şəxsi arxivində tapılan o məktub məsələsi?.. Onun məzmunu da yalanmı-saxta idimi? Bu məktubda M.C.Bağırovun Azərbaycan xalqına – say-seçmə insanlarına və rayon-kənd təəssərüfatçı minlərlə məsum insanlarının şantaj yolu ilə divan tutulmasına, məgər M.C.Bağırov günahkar deyil? Hətta, təəccüblüsü də budur ki, onların sırasında miliyyətcə ruc, gürcü və erməni də olub. Bu, Sov.KP MK-nın sıralarının təmizlənməsi idi. Axı, günahsız xalqın nə pis işi vardı, Sovet "islahatçılığında".

Tarixin dəhşətli növbəti qara səhifəsi:

İstintaq Bağırovun Beriyanın xəyanətkar keçmişini ört-basdır etməkdə fəal iştirakçı olması barədə digər faktları da aşkara çıxarırdı.

Şahid Tahirov deyirdi:

"Bağırovu mən 1921-ci illərdən tanıyırdım. Sonra illər ərzində onunla iş prosesində qarşılaşırdım. Bizim münasibətlərimiz yaxşı idi, odur ki, bir-birimizin evində olurduq.

1923-cü ildə bir axşamçağı Bağırov və o zaman Azərbalıq idarəsinin sədri Baba Əliyev bizim bağa yığışmışdılar. Biz şam etdik və bir qədər də içdik.Söhbət əsnasında Baba Əliyev Bağırovdan soruşdu ki, nə üçün o, Beriyanı musavat zamanı ingilis əkskəşviyatındakı fəaliyyətindən xəbərdar ola-ola onu işə götürüb və gündən-günə də vəzifəsi yüksəlir?! Bağırov cavab verdi ki, Beriya əkskəşviyyata gizli partiya təşkilatı tərəfindən göndərilib. Baba Əliyev buna etiraz etdi və dedi ki, o, gizli təşkilatda çalışanların hamısını tanıyır. Beriya onların arasında olmayıb, o, əsl əkskəşviyyatçıdır."

Nəticədə Baba Əliyev, Bağırovun göstərişi ilə həbs edildi və saxtalaşdırılmış məhkəmə işi əsasında güllələndi.

Müəyyənləşdirilmişdir ki, Bağırov Beriyanın musavat əkskəşviyyatında xidmətindən xəbərdar olan və ona siyasi inamsızlıqla yanaşan bir çox köhnə kommunistlərə divan tutmuşdur.

1923-cü ildə Ulyanov, Pleşşakov və mən Bakı klublarınəın birində olarkən eşitdik ki, Beriya Zaqafqaziya vilayən komitəsinin katibi təyin olunub.

Beriyanı şəxsən tanıdığımız üçün narazılığımızı bildirdik və belə hesab etdik ki,keçmiş musavat polisində xidmət etdiyi üçün Beriya bu cür məsul vəzifəni tuta bilməz.

Bizimlə bir yerdə olan Tere qulov söhbətlərimizi Bağırova çatdırmışdı.

Məlumdur ki, 1935-ci ildə Beriyanın müəllifi olduğu " Zaqafqaziyada bolşevik təşkilatının tarixindən" adlı kitab çıxmışdı. Şəxsən mənə neft mədənlərində keçirilən partiya yığıncaqında həmin kitabın öyrədilməsini təşkil etmək tapşırılmışdı. Mən müxtəlif bəhanələrlə bu işdən imtina etdim. Bağırov məni yanına çağırıb üstümə çığırdı, dedi ki, siz köhnə partiyaçılar başınızdan böyük işlər görürsünüz, Beriya və mənim barəmdə çox çərənnəyirsiz, dilinizi dinc qoymasanız, başınıza bəla olacaq.

Bir qədər sonra həmin adamlar həbs edildi və güllələndi."

Azərbaycan Xalq Komissarları Soveti yanında baş arbitr vəzifəsində çalışan Dovlətov İsay İvanoviç 1937-ci il iyunun 12-də Sumbatov tərəfindən Bağırova qarşı terroçuluq aktını nəzəriyyəsini hazırlayan "fəal trotski-terroçu" kimi həbs olundu. Dövlətovun həbs olunmasına səbəb isə, onun Beriyanın musavat əkskəşfiyyatının agent-təxribatçısı kimi tanıması olmuşdu. **Bu barədə Manuçarovun şahid ifadəsindən:**

"Qrupumuzun üzvü Novikov musavat polisi tərəfindən yaxalanmış, bir qədər sonra isə dar ağacından asılmışdı, biz isə gizlənə bilmişdik.

Bu hadisədən bir qədər əvvəl, musavat axtarış polisi tərəfindən gizli təşkilatın bir üzvü, guya "erməni taciri" olması barədə sənədi olan Aleksandr Baqdasarov həbs edilmişdi.

Gizli təşkilat üzvlərindən biri olan Novikov "rus taciri" kimi, axtarış polis əməkdaşlarından biri ilə dil tapa bilmiş, onun vasitəsilə Baqdasarovla görüşə bilmişdi. Baqdasarovla görüşdən sonra Novikov bizə demişdi ki, Saşa bizi ehtiyatlı olmağa çağırır və xəbərdarlıq edir ki, axtarış polisində xidmət edən bir gürcü bizi məhv edə bilər.

Baqdasarovun əlində "erməni taciri" nə məxsus sənəd olduğundan rüşvət verib onu həbsdən qurtardıq. Həbsdən çıxandan sonra Baqdasarov bizə danışdı ki, polisdəki gürcü onun yanına gəlib, o vaxtlar Vilayət partiya komitəsinin katibi olan Dövlət İsayın rabitəçisi olduğunu söyləmiş. Baqdasarov həmin gürcünün təxribatına ymayıb və Dövlətovla tanışlığını danıb.

Sonralar Bakıda Sovet Hakimiyyəti qurulandan sonra, həmin gürcü əvvəl inqilab komitəsində, sonra isə FK-da işləməyə başladı. Onun adı Lavrenti Pavloviç Beriya idi.Bax, Beriyanın musavat polisində xidməti ona görə bizə məlumdur.

İstintaq zamanı Bağırovun göstərişi ilə Dövlətov möhkəm əzişdirildi. Bunu keçmiş "NKVD" əməkdaşları da təsdiq edirlər. **Şahid Klimançiçin dediklərindən:**

"Bağırov müstəntiq Qabrielyana əmr etdi ki, Dövlətovu döysün. Qabrielyan da Bağırovun yanında Dövlətovu döyməyə başladı.

İşgəncələrə dözə bilməyən Dövlətov nəticədə özünə və yoldaşlarına böhtan atılan istintaq protokollarını imzaladı. Məhkəmə zamanı isə verdiyi ifadələrdən imtina etdi. 1938-ci ilin avqustun 21-də saxtalaşdırılmış istintaq materiallarına əsasən, Dövlətov güllələndi.

Bağırov Beriyanın musavat keçmişində xəbərdar olaraq cinayətlərini ört-basdr etmək üçün arxiv sənədlərini oğurlayıb Beriyaya göndərməkdən, namuslu adamların həyatlarına qəsd etməkdən belə çəkinmirdisə, Beriya da öz növbəsində borclu qalmırdı. Bağırovun əməllərini ört-basdr edirdi.

...Bu versiyalardan belə nəticəyə gəlinir ki, Bağırov-Beriya qanadı yetərincə musavat əkskəşviyyatında püxtələşmiş, topladığları bütün təcrübəni sovet imperiyasının köklənməsində istifadə etmişdilər. Əgər, Azərbaycan Milli Demokratik Dövlət qurucuları olan musavatçılar içlərinə təyin olunan əkskəşviyyatçıları hiss edə bilsəydilər, bəlkə də tarixin böyük uğursuzluqlarına düçar olmazdılar. Bu qara tarixin nəyi yalan, nəyi düz olduğunu dəqiq deyə bilmərəm. Lakin dövrün şahidi olan tarixi yazan dürüst olmalıdır.
ARBS.

ƏKSİNQİLABÇI ÜNSÜRLƏRİN MƏSULİYYƏTDƏN KƏNARLAŞDIRILMASI

16.13.2019.

Bu işin istintaqı gedişində Azərbaycan DİN arxivində Əzəzov Əziz Məşədi Hüseyn oğlunun (**Əziz baba**) xitam verilmiş 818 №-li cinayət işi aşkara çıxarıldı. Həmin işi nəzərdən keçirərkən məlum oldu ki, Əzizov 1921-ci ilin oktyabrında həbs olunmuş, belə bir ifadə vermişdir ki, 1919-cu ildə müsavat əksinqilabının agenti olub və agent Lavrenti Beriya ilə birgə xidmət edib.

Bağırov və Beriya Əzizovu həbsdən azad etdilər və onun barəsində cinayət işinə xitam verdilər. Bu barədə istintaq olunan Bağırova Əzizovun arxiv sənədini göstərəndən sonra etiraf etdi ki, Əzizov müsavat əksinqilabçısı idi və məhkəməyə verilməli idi. Əgər o, həbs olunmayıbsa, yəqin ki, bu işdə Beriyanın əli var. Sonra Bağırov göstərdi ki, o özü Əzizovun işini xatırlamır.

Bağırovun bu ifadələri həqiqətdən uzaqdır. Sənədlərlə müəyyən olunmuşdur ki, 1937-ci ildə Əzizov partiyadan xaric edilən zaman, o, Beriyaya və Bağırova kömək üçün müraciət etmiş, onlar da Əzizovu partiyaya bərpa olunmasına nail olmuşlar. Bu faktı Əzizovun 1937-ci ilin 17 noyabrında Beriyaya ünvanlanmış məktubu sübut edib. Məktubun üzərində Beriyanın dərkənarı var: **«Azərbaycan K(b)P MK-ya yol. Bağırova göndərilsin».**

Bağırov Azərbaycan FK-da işə düzələndən dərhal sonra, 1921-ci ilin 24 fevralında müsavat əksinqilabının digər agenti Məmməd Hacıyev barədə cinayət işinə də xitam verildi və o, həbsdən azad edildi.

1921-ci ilin 20 sentyabrında Bağırov müsavat əksinqilabının keçmiş rəisinin arvadı Şıxzamanova barədə də cinayət işinə xitam verdi. O da 1920-ci ildə əri – keçmiş müsavat əksinqilab rəisi Şıxzamanovun etdiyi hərəkəti təkrarlayaraq 1922-ci ildə Türkiyəyə qaçdı.

Bundan qabaq göstərdiyimiz kimi, 1919-ci ildə Bağırov sosial mənşəyi etibarilə bəy, iri mülkədar olan, fevral inqilabınadək polis nəzarəti kapitanı və müsavat parlament üzvü olan «Quba qəza komissarı» Əlibəy Zizikskinin müavini olmuşdur.

Zizikski öz qohumları Şıxlarski bəylərlə birlikdə Quba şəhərində və Quba qəzasında dəfələrlə erməni qırğını və qarətlər təşkil edib, öz ətrafına bəyləri və qolçomaqları yığaraq inqilabi hərəkata qarşı fəal mübarizə aparıb. Azərbaycan sovetləşəndən sonra Əlibəy Zizikski İrana qaçdı.

Bağırov Azərbaycan FK-nın sədri olandan sonra Zizikskinin Azərbaycana qayıtmasına icazə verdi və onu üzə çıxartdı.

Əlibəy Zizikskinin üzə çıxması şəraitini **ş a h i d** ORUCOV belə g ö s t ə r i r d i:

«1920-ci ildən sonra Bağırov Bakıda Azərbaycan FK-nın sədri idi, onun katibi isə mənim dayım oğlu Hacağa Şahverdiyev idi. Şahverdiyev Bağırovla ən yaxın dost olub. Biz üçümüz birlikdə Quba şəhərindəki şəhər məktəbində oxuyurduq.

1922-ci ildə mən Bakıya getdim və Şahverdiyevin evinə düşdüm.

Bir dəfə işdən qayıdandan sonra Şahverdiyev mənə dedi ki, Bağırov səni yanına çağırır. Ertəsi gün mən Hacağa Şahverdiyevlə birlikdə Azərbaycan FK-ya – Bağırovun yanına getdim. Bağırovla biz köhnə dostlar kimi görüşdük. O məni çox yaxşı qarşıladı.

Söhbət əsasında Bağırov məndən soruşdu ki, Əlibəy Zİzikskini xatırlayırsanmı? Mən cavab verdim ki, çox yaxşı yadımdadır. Söhbətimizdə Hacağa Şahverdiyev də iştirak edirdi.

Bir qədərdən sonra Qəni adlı mühafizəçi (familiyasını bilmirəm) **bildirdi ki, «onlar gəliblər». Bağırov gələnləri içəri buraxmaq barədə ona göstəriş verdi. Bağırovun otağına bir-birinin ardınca keçmiş Quba mülkədarı, Quba bəylərindən Şıxlarskinin qohumu Bəybala bəy Alpanski, Bağırovun qubalı dostlarından, Əlibəy Zizikskinin qohumu tacir Hacıbala Məmmədyarov, eləcə də Əlibəy Zizikski daxil oldular.**

Onlar otağa daxil olanda Bağırov yerindən qalxıb, onları qarşıladı, hər birilə mehribanlıqla görüşdü, Əlibəy Zizikski ilə hətta öpüşdü.

Söhbət zamanı Bağırov ərklə bildirdi ki, sən nə üçün gizlənirsən, özünü alçaldırsan. Bilirsən ki, mən burada işləyirəm. Əlibəy gözləri yaşarmış halda Bağırova bildirdi ki, onu həbs etməklə qorxudurmuşlar, ona görə də o, gizlənib. Bağırov elə o dəqiqə Əlibəy Zizikskinin üzə çıxarılması üçün sənədlər ha-

zırlamağı Hacağa Şahverdiyevə tapşırdı. Elə həmin otaqdaca Şahverdiyev sənədləri hazırladı, Bağırov həmin sənədi imzalayıb möhür vurdu. Həmin sənədi Zizikskiyə verib dedi: «Bu sənədə əsasən sən Azərbaycanın harasında istəsən yaşaya bilərsən. Nə qədər ki, mən burada - FK-da işləyirəm, sən heç bir şey üçün narahat olma».

Doğrudan da, bütün sonrakı illər ərzində Əlibəy Zizikski ailəsi ilə birlikdə Bakıda yaşadı».

Müəyyənləşdirilmişdir ki, üzə çıxandan sonra Zizikski uzun illər ərzində Bakıda Aşağı qəbiristanlıq küçəsi, 79 №-li evdə yepləşən şəxsi mülkündə yaşamış və həmin evin kirayə pulu ilə dolanmışdır.

Ş a h i d QASIMOV QƏNİ HÜSEYN *oğlu göstərir ki, 1924-cü ildə o, Zizikskini Bağırovun evində görüb. Zizikski orada saat yarıma qədər olub. Onun Bağırovun yanına gəlməsinin səbəbi isə ona məlum deyil.*

Beləliklə, məlum olmuşdur ki, Zizikski üzə çıxandan sonra Bağırov onunla əlaqələrini üzməmişdir. Bağırov Azərbaycan FK-də sədr olduğu müddətdə Zizikski cəzadan yaxa qurtara bilmişdir.

1926-cı ildə Azərbaycan BSİ-nə Zizikskinin fəal əksinqilabi fəaliyyəti barədə məlumatlar daxil olmağa başladı. 1928-ci ilin 6 avqustunda (yəni Bağırov Azərbaycanda işləmədiyi vaxt) Zizikski Azərbaycan BSİ-nin kollegiyasının qərarı ilə güllələnməyə məhkum edildi, evi isə müsadirə edildi.

Müttəhim Bağırov ilk əvvəllər bildirdi ki, Əlibəy Zizikski ona görə üzə çıxarılıb ki, sonra repressiyaya uğradılsın. Bağırov sonra elan edib ki, Zizikski repressiya olunmaq əvəzinə üzə çıxarılması səhv olub və guya Zizikskinin hansı şəraitdə üzə çıxarılmasını xatırlamır.

Yuxarıda göstərilən dəlillərdən, M.Ş.Musaxanovun, Ş.Məmmədovun, A.İ.Mileşkinin, S.K.Qafarlının, İ.D.Ağayevin, Q.Ağaxanovun ifadələrindən, eləcə də müttəhim Borşevin ifadələrindən tamamilə müəyyən edilmişdir ki, Bağırov Əlibəy Zizikskiyə himayədarlıq etmişdir. Göründüyü kimi, Əlibəy Zizikski Bağırovun iştirakı olmadan məsuliyyətə cəlb olunub və cəzalandırılıb. Ziziskinini qohumları – keçmiş Quba mülkədarı, Şıxlarski bəylərinin qohumu Bəybala bəy Alpanski, eləcə də Quba alverçisi və Əlibəy Zizikskinin ögey qardaşı Hacıbala Məmmədyarov heç bir repressiyaya uğradılmamışdır. Şahidlərdən A.N.Orucovun, Q.X.Ağaxanovun və H.Şahverdiyevin ifadələrində Alpanski və Məmmədyarov Bağırovun dostları kimi göstərilir.

Bu barədə istintaq olunan Bağırov Alpanski və Məmmədyarovla tanış olduğunu, ancaq həmin əksinqilabçıların nə üçün repressiya olunmadığını heç cür ağlına sığışdıra bilmədiyini söylədi.

Biz artıq göstərmişik ki, 1917-ci ildə Qubada Əlibəy Zizikskinin Bağırovdan başqa köməkçisi iri mülkədar ailəsindən olan əksinqilabçı, müsavat parlamentinin üzvü Qazı Əhməd bəy Məhəmmədbəyov idi.

...Arxiv materiallarından aydın olur ki, M.C.Bağırov bir qubalı kimi öz yerli say-seçmələrinə böyük dəstəy-arxa olub. Onun

bu güclü xarakterini açan bir səhnə xüsusilə çox maraqlı və düşündürücüdür. Lakin, ümumilikdə götürsək, insan çox müəmmalı varlıqdır: onun içində mürgü döyən qeyri-adi bir şeytani-iblis mövcudiyyəti vardır. Və onun oyanması üçün, sadəcə şəraitin törənməsi lazımdır. Yalnız bu zaman insan içindəkinə çevrilərək, həqiqətləri inkar edir.

Bu arxiv sənədlərə diqqət edək:

Bundan əvvəlki səhifələrdə göstərildiyi kimi, 1919-cu ildə Bağırov, sosial mənşəyi etibarı ilə bəy, iri mülkədar olan, fevral inqilabınadək polis nəzarəti kapitanı və musavat parlamenti üzvü olan "Quba qəza komissarı" Əlibəy Zizikskinin müavini olmuşdur.

Zizikski öz qohumları Şıxlarski bəylərlə birlikdə Quba şəhərində və Quba qəzasında dəfələrlə erməni qırğını və qarətlər təşkil edib, öz ətrafına bəyləri və qolçomaqları yığaraq inqilabi hərəkata qarşı fəal mübarizə aparıb. Azərbacan sovetləşəndən sonra Zizikski İrana qaçıb.

Bağırov Azərbaycan FK-nıln sədri olandan sonra Zizikskinin Azərbaycana qayıtmasına icazə verdi və onu üzə çıxartdı.

Əlibəy Zizikskinin üzə çıxması şəraitini şahid Orucov belə göstərir:

"1920-ci ildən sonra Bağırov Bakıda Azərbaycan FK-nın sədri idi, onun katibi isə mənim dayım oğlu Hacağa Şahverdiyev idi. Şahverdiyev Bağırovla ən yaxın dost olub. Biz üçümüz birlikdə Quba şəhərində şəhər məktəbində oxuyurduq.

1922-ci ildə mən Bakıya getdim və Şahverdiyevin evinə düşdüm.

Bir dəfə işdən qayıdandan sonra Şahverdiyev mənə dedi ki, Bağırov səni yanına çağırır. Ertəsi gün mən Hacağa Şahverdiyevlə birlikdə FK-ya – Bağırovun yanına getdim. Bağırovla biz köhnə dostlar kimi görüşdük. O, məni çox yaxşı qarşıladı. Söhbət əsasında Bağırov məndən soruşdu ki, Əlibəy Zizikskini xatırlayırsanmı? Mən ona cavab verdim ki, əlbəttə yaxşı xatırlayıram. Söhbətimizdə Hacağa Şahverdiyev də iştirak edirdi.

Bir qədər sonra Qəni adlı mühafizəçi (familyasını bilmirəm) bildirdi ki, "onlar gəliblər." Bağırov gənləri içəri buraxmaq barədə ona göstəriş verdi. Bağırovun otağına bir-birinin ardınca keçmiş Quba mülkədarı, Quba bəylərindən Şıxlarskinin qohumu Bəybala bəy Alpanski, Bağırovun qubalı dostlarından, Əlibəy Zizikskinin qohumu tacir Hacıbala Məmmədyarov, eləcədə Əlibəy Zizikski daxil oldular. Onlar otağa daxil olanda, Bağırov yerindən qalxaraq onları qarşıladı, hər biri ilə mehribanlıqla görüşdü, Zizikski ilə isə hətta öpüşdü.

Çox maraqlıdır ki, bir zaman Zizikskinin köməkçisi olmuş Bağırov, hazırda FK-nın sədri kimi, onun niyə gizləndiyini soruşaraq, özünün daha belə yüksək yerdə işlədiyini etiraf edir. Zizikski isə yazıq bir görkəmdə onun həbslə qorxudulduğunu söyləyir. Bağırov bu dəqiqə Zizikskinin üzə çıxarılmağı barədə sənədlərin hazırlanmasını Hacağa Şahverdiyevə tapşırıq verir. Şahvediyev həmən sənədləri hazırlayır. Sonra Bağırov möhür vurub Zizikskiyə təqdim edərək deyir ki, "Bu sənədə əsasən, bu andan etibarən Azərbaycanın istənilən yerində yaşaya bilərsən. Nə qədər mən buradayam, sənə heç bir şey ola bilməz."

Uzun müddət Zizikski ailəsi ilə bərabər Bakıda şəxsi mülkündə yaşamış. Lakin...

...1926-cı ildə Azərbaycan BSİ-nə (Baş Siyasi İdarə) Zizikskinin əksinqilabi

fəaliyyəti barədə məlumatlar daxil olmağa başlamışdır.1928-ci ilin 6 avqustunda, (yəni Bağırov Azərbaycanda işləmədiyi vaxt) Zizikski Azərbaycan BSİ-nin kollegiyasının qərarı ilə güllələnməyə məhkum edildi, evi isə müsadirə edildi.

Müttəhim Bağırov sonradan bildirmiş ki, Zizikskini əvvəlcə üzə çıxarıb ki, sonra onu repressiyaya uğratsın. Lakin onu ilk öncə üzə çıxarılmağı səhv olub, gərək ilk zamandan Zizikski repressiyaya məhkum edilməli idi. Lakin Bağırov onun hansı şəraitdə üzə çıxarılmasını xatırlamır.

Göstərilən dəlillərdən, M.Ş.Musaxanovun, Ş.Məmmədovun, A.İ.Mileşkinin, S.K.Qafarlının, İ.D.Ağayevin, Q,Ağaxanovun ifadələrindən, eləcə də müttəhim Borşevin ifadələrindən tamamilə müəyyən edilmişdir ki, Bağırov Zizikskiyə himayədarlıq etmişdir. Əlibəy Zizikski M.C.Bağırovun iştirakı olmadan məsuliyyətə cəlb olunub və cəzalandırılıb. Zizikskinin qohumları – keçmiş Quba mülkədarı, Şıxlarski bəylərinin qohumu Bəybala bəy Alpanski, eləcə də Quba alverçisi və Əlibəy Zizikskinin ögey qardaşı Hacıbala Məmmədyarov heç bir repressiyaya uğradılmamışdır. Şahidlərdən A.N.Orucovun, Q.X, Ağaxanovun və H.Şahverdiyevin ifadələrində Alpanski və Məmmədyarov Bağırovun dostları kimi göstərilir.

Bu barədə istintaq olunan Bağırov Alpanski və Məmmədyarovla tanış olduğunu, ancaq həmin əksinqilabçıların nə üçün repressiya olunmadığını heç cürə ağlına sığışdıra bilmədiyini söylədi.

Bir daha diqqətə çatdırıram ki, 1917-ci ildə Qubada Əlibəy Zizikskinin Bağırovdan başqa köməkçisi, iri mülkədar ailəsindən olan əksinqilabçı, musavat parlamentinin üzvü Qazı Əhməd bəy Məmmədbəyov idi.

M.C.Bağırov çox doğma münasibətdə olan Azərbalıq Komitəsinin sədri Dövlətovun evində onunla bir süfrədə çörək kəsməsinə baxmayaraq, Dövlətovun Beriyanın musavat əksinqilabçılığını iddia etdiyinə görə onu az sonra həbs etdirib gülələtdirir. Və növbəti kadrlar da eyni rəngləri müşayət edir. Yəni qubalı mülkədar-bəylərlə görüşü səhnəsi, olduqca kəsici siyasi xarakter daşıyır. Lakin pərdəli. **Sonrası isə...**

Bu arxiv tarixi gerçəklərin sübutudursa... O zaman açıq-aydın görünür ki, M.C.Bağırov sırf Musavatçı olub. Bu isə normal – çox qürurverici haldır. Çünki, Azərbaycanın müstəqil Dövlət Quruculuğu əsas qanuni yol idisə, bu isə Xalq və

Müstəqil Azərbaycan uğruna yüksək xidmətdir. Sadəcə musavat əksinqilabi fəaliyyəti kəşfiyyat xarakterli bir dövlət sirri olmuşdur. Lakin, Azərbaycanda tədriclə sovetləşmə törəndikcə, baxışlar, düşüncələr və siyasi amalca güc füqurların gedişləri damalar üzrə məqsədəuyğun formalaşmağa zəruriləşmişdir. Çünki, zamanın siyasi çalxalanmaları, yalnız hər hansı bir mənada zərurət tələb və məcbur edir. Bu isə, hökumətçilərin müəmmalı manevr və kompremisləridir. Lakin, müydanı isə, güclü olanlar tutur. Bu mənada isə qazanan Sov. İKP oldu. Bu "şirin ideologiya" yetmiş il, nəinki Azərbaycan Xalqını, hətta bütün müttəfiq dövlətlərin xalqlarını öz siyasi zəncirinə halqalaya bildi.

M.C.Bağırov Siyasi rüzgara uyğun gedişlər etmişdir. Və o, heç vaxt həqiqətləri olduğu kimi masaya qoya bilməzdi. O, siyasi məqsədinin ikinci tərəfində də bütün inkarlarını, dəstəy olduğu yerli insanlarının müsbət tərəfləri üçün etmişdir: İstintaq prosesləri zamanı, o cümlədən məhkəmə dindirilişlərində yerli qubalı ağa-bəylərinin yaxınlığını və onlarla birgə gizli musavat fəaliyyətini "xatirə yaddaşı"ndan silmişdir. Bu arxiv sənədlərindəki bəzi dumanlı versiyalar isə, tarixi araşdırmaçını çaşdırır. Bu zaman isə, əsil tarixi həqiqətləri görmək, qeyri-mümkündür. Çünki, istintaqla məhkəməyə çıxarılan hər hansı birinin qatı şantaja məruz qalması mümkün və təbiidir.

ARBS.

Azərbaycan sovetləşəndən sonra Məhəmmədbəyov heç bir repressiyaya uğramayıb, Mahaçqala şəhərində yaşayıb, hüquq məsləhətçisi işləyirmiş. Bağırov bundan xəbərdar olmaya bilməzdi. Çünki 1936-cı ilin fevralında Məhəmmədbəyov Triniçin işi üzrə şahid sifətilə dindirilmiş. O vaxt öz ifadələrində Məhəmmədbəyov göstərirdi ki, Bağırovla birlikdə o, qəza komissarı Əlibəy Zizikskinin müavini vəzifəsində çalışırmış. Ancaq Bağırov Zizikskinin birinci müavini olduğundan o, Əhməd Əfəndinin *(Triniçin)* 1918 –19-cu illərdə Qubadakı fəaliyyəti barədə daha ətraflı məlumat verə bilər. Bağırov Məhəmmədbəyovun bu ifadələrindən xəbərsiz ola bilməzdi.

Əlində həmin şəxsləri cinayətkar kimi xarakterizə edən kifayət qədər material olmasına baxmayaraq, Bağırov uzun illər boyu qolçomaq Camal Mirzəyevə, onun oğulları Cəmil və Şamilə himayədarlıq etmişdir.

Bağırovun antisovet ünsürləri qorumağına və onlara himayədarlıq etməsinə daha bir nümunə - keçmiş müsavat pristavı və siyasi bandit, çar zamanı xidmət etmiş Qiyas bəy Cahandar bəy oğlu Şıxlinskinin üzə çıxarılmasıdır. Bağırov onu nəinki üzə çıxartdı, hətta Qazax qəzasında milis rəisi vəzifəsinə də təyin etdi.

O illərdə Azərbaycan BSİ işçiləri arasında Şıxlinski daima Bağırovla yaxınlığını qeyd edirdi.

1930-cu ildə Şıxlinski öz qohumları ilə birgə Türkiyəyə qaçdı, orada türk kəşfiyyatı ilə əlaqə yaradıb, SSRİ ərazisinə silahlı basqınlar etdi.

İstintaq zamanı Bağırov təsdiq etdi ki, Şıxlinskini o, üzə çıxarıb. Ancaq ona himayədarlıq etmək və müdafiə etmək faktını dandı. Bağırovun bu ifadələrini 1954-cü ilin 28 avqustunda dindirilmiş **ş a h i d l ə r d ə n** ƏLİYEV ZEYNAL MEHRƏLİ oğlu təkzib etdi:

«Bağırov çox vaxt keçmiş müsavat fəallarını öz tərəfinə çəkir və məsul vəzifələrə təyin edirdi. Belə ki, Bağırovun Qazax qəzasında milis rəisi vəzifəsinə keçmiş müsavat pristavı Qiyas bəy Şıxlinskini təyin etməsi, mənim yaxşı yadımdadır. Milis rəisi işləyərkən Şıxlinski sovet hökumətinə heç bir yardım göstərməyib və heç bir xeyirli iş görməyib.

Bağırov Şıxliskiyə hər cür himayədarlıq göstərirdi. Bundan istifadə edən Şıxlinski yerli sovet hakimiyyəti orqanları ilə hesablaşmır, yalnız Bağırova tabe olduğunu bildirirdi.

Təqribən **1930-cu ildə yerli hökumət cinayətkar fəaliyyətini ifşa etməyə başlayanda Şıxlinski silahlı dəstə ilə Türkiyəyə qaçdı».**

Bu ifadələri istintaq zamanı müttəhim Borşev də təsdiq e t d i:

«Şıxlinskinin sözlərindən mənə aydın oldu ki, Bağırov onu yaxşı tanıyır. O vaxtlar Şıxlinski bununla fəxr edirdi.

İndi yadıma düşür ki, o illərdə Şıxlinski Azərbaycan Baş Siyasi İdarəsinin rəhbər işçiləri arasında dəfələrlə Bağırovla yaxın münasibətindən danışırdı».

Bağırovun Şıxlinskiyə himayədarlıq etməsi sənədlərlə də sübut olunur.

Gəncə vilayət şöbəsi rəisi Şıxlinskinin ağır cinayətlərdə iştirakı ilə bağlı məlumat versə də o, məsuliyyətə cəlb olunmadı. Bundan əlavə, Şıxlinski 1930-cu il mayın 12-də müttəhim Bağırova şəxsi məktub yazıb, onu sıxışdırdıqlarından və antisovet fəaliyyətdə şübhələndiklərindən şikayətlənəndə, Bağırov həmin məktuba aşağıdakı dərkənarı q o y u r:

«Yoldaş Neverova. Bir daha vilayət şöbəsi vasitəsilə bu biabırçılıqlara son qoyun. Nəticəsi barədə mənə mayın 21-dək məlumat verin».

Bu məktubdan sonra 1930-cu ilin 29 iyulunda həmin Şıxlinskiyə, o vaxtlar Azərbaycan BSİ Gəncə vilayət şöbəsinin keçmiş rəisi Quliyevin imzası ilə 1345 №-li arayış verildi. Həmin arayışda Şıxlinskinin 7 nəfər silahlı yoldaşı ilə birlikdə Gncəyə tərəf hərəkət etməsi göstərilir və ona heç bir maneçilik göstərilməməsi tövsiyə olunurdu.

Çox çəkmədi ki, qohumları və həmin silahlı dəstə ilə birlikdə Şıxlinski Türkiyəyə qaçdı.

Beriya və Bağırovun antisovet elementləri qorumasına bir nümunə də Əlipənah bəy Şəfibəyovdur. Bəy nəslindən olan Şəfibəyov sovet hökumətinin düşməni idi. Müsavat zamanı Qubada müsavat partiyası qəza komitəsi sədrinin müavini idi. Şəfibəyov ilk dəfə 1927-ci ilin aprelində həbs olunmuşdu, lakin Beriyanın təsdiq etdiyi qərara əsasən, istintaq aparılmadan həbsdən azad edilmişdi. Şəfibəyovun hansı sənədlərə əsasən həbs olunması barədə məteriallara rast gəlmədik.

İkinci dəfə Şəfibəyov 1930-cu ildə həbs olunub. Bu dəfə Şəfibəyov antisovet fəaliyyətdə ittiham olunurdu. Həbsə alınarkən ondan türk nümunəli tüfəng və ona müvafiq 30 patron alınmışdı.

Lakin cinayət dəlilləri olmasına baxmayaraq Bağırovun sədrliyi ilə 1930-cu ilin 16 martında keçirilmiş Azərbaycan BSİ-nin kolleciyası Şəfibəyovun işinə xitam verdi.

Triniçin əksinqidabi keçmişi barədə dəfələrlə siqnallar daxil olmasına baxmayaraq, Bağırov 1933-cü ildə onu hökümət mükafatına – ordenlə mükafatlandırmağa təqdim etdi. Triniç mükafata təqdim olunandan sonra Azərbaycan MİK-nin keçmiş sədri Baba Əliyev Bağırovun adına rəsmi ərizə yazıb, Triniçin keçmişdə cəllad olduğunu açıq-aşkar göstərmişdir.

Bağırovun Triniçinin cinayətkar keçmişindən xəbərdar olduğunu aşağıdakı fakt bir daha sübut edir.

1936-cı ilin 27 oktyabrında Triniçin bacısı – Nemət Kamal Məlikova qardaşının həbsi ilə əlaqədar ərizə yazıb Bağırova müraciət etmişdi. Həmin ərizədə deyilirdi:

«Heç kimə də olmasa, Triniçin Qubada və qəzada türk zabiti olarkən keçirdiyi həyat şəraiti və fəaliyyəti Sizə yaxşı məlum olmalıdır».

Həmin ərizədə daha sonra o, Triniçin azad olunmasını israrla tələb edir və göstərirdi ki, Triniç günahkar olsa belə, Bağırov onu azad etməlidir.

Triniç əksinqilabi fəaliyyətdə günahlandırılıb həbs edildikdən sonra onun işi baxılmaq üçün Azərbaycan SSR Ali Məhkəməsinin xüsusi kollegiyasına verildi. Triniç 1936-cı ilin 16 oktyabrında xüsusi kollegiya sədrinin adına aşağıdakı məzmunda ərizə yazdı:

«Düşmənlərimi ifşa etmək üçün mən bu ayın 7-də prokurora üz tutub, mənə açıq cavab yazmaq imkanı verilməsini xahiş etdim. Lakin mənim xahişim cavabsız qaldı, iş isə Sizə göndərildi.

Diqqətinizi yuxarıda göstərilənlərə yönəldərək, həmin imkanın mənə verilməsini xahiş edirəm. Arxayın ola bilərsiniz, düşmənlərimin mənə lağ edib gülmələrinə yol vermərəm, odur ki, məhkəmədə susacağam (qapalı məhkəmə iclası istisna olmaqla)».

Triniçin işinə 1937-ci ilin iyununa qədər baxılmadı, sonra isə Azərbaycan XDİK-nin tələbi ilə yenidən ora qaytarıldı. Triniçin sonrakı taleyi məlum deyil. Bağırovun dediyinə görə, Sumbatov Triniçin kamerada özünü asaraq öldürməsi barədə məlumat vermişdir.

... Hər zaman el arasında etiraf olunan belə bir deyim var: Filan bölgə insanları biri-birinə arxa-dayaq olur. Məsələ, naxçıvanlı, bakılı və başqa bölgənin adamı rəhbər vəzifədə olursa, öz yerlilərini də məsul yerlərə çəkir. Lakin, bu düşüncənin əksinə olaraq, qubalıların fikri isə belədir: “Qubalılar biri-birini tutmur...”

Amma, mən apardığım araşdırmalardan açıq-aydın görürəm ki, qubalıların düşüncəsində formalaşdırdıqları düzgün deyil. Çünki, M.C.Bağırovun tarixi səhifələrinə diqqət edilsə, bu adamın, qubalıların sovetlərdən xilası üçün necə böyük risklərə getdiyinin şahidi olmaq mümkündür. Bunlar, olduqca dəhşətli bağlantılar olmuşdur. Yəni, M.C.Bağırov öz hakimiyyət taleyini çox böyük xəyanətkar zəncirlərlə halqalamışdır. O, müdafiə etdiyi - Qubanın çox önəmli say-seçmə zəngin insanlarını iki xət üzrə cilalamışdır: Quba ağa-bəyləri qatı musavatçı olduğları bir halda, sovet quruluşuna hədsiz düşmənçi fəaliyyətdə gizli çalışmalarına baxmayaraq, yenə də onları sovet BSİ-i ideoloqiya dəyirmanının iti çarxlarından uzun müddət qoruya, himayə edə bilmişdir. Bu antisovet fəaliyyətin sirli-dumanlı keçidləri, bəlkə də musavatın yenidən bərpa oluna biləcəyi ehtimalı düşüncəsi ilə köklənmiş olmasında idi. Lakin, M.C.Bağırov və Lavrenti Beriya cütlüyü belə proqnozlarında yanılmış oldu. Bu qənaət, iki versiyadan birincisidir. İkinci versiya isə, yuxarıda qeyd edildiyi kimi, sovet quruluşunu ümumulikdə ələ keçirmək olmuşdur. Amma, M.C.Bağırov-Beriya əksinqilabi kəşfiyyat cəhdləri gözlənilən ümidləri doğrulda bilmədi. Maraqlı tərəflərdən biri də budur ki, niyə görə Əhməd Əfəndinin sıra adı Triniçin olub? Kəşviyyat hədəfimi? Əslində isə soyadı bilinməyən Əhməd Əfəndi türkdür?! Çünki, Əfəndi türk əsli deməkdir.

Əhməd Əfəndinin həbsindən sonra, bacısının Bağırova yazdığı məktubuna gəldikdə isə, əlbəttə Nemət Kamal Məlikova haklı olmuş. Çünki, qardaşını

Bağırovun əksinqilabi planları idarə etmişdir. O cümlədən, Triniçin (Əhmən Əfəndi) həbs olunduğu zaman Bağırova məktub yazaraq, ondan açıq yazmağı xahiş etmişdir. Bu tərəfi daha ziddiyətli və diqqətçəkicidir ki, o, yalnız qapalı məhkəməni istisna edərək, susacağını bildirmişdir. Lakin, Əhməd Əfəndi Triniçin işinə 1937-ci ilin iyununa qədər baxılmamış, sonra isə Azərbaycan XDİK-nin tələbi ilə oraya qaytarılmış, sonrakı taleyi isə məlum olunmamışdır.

Lakin Bağırovun dediyinə görə, Sumbatov, Triniçin kamerada özünü asaraq öldürməsi barədə məlumat vermişdir.
ARBS.

Keçmiş Bakı neft milyonçusu Əsədullayevin oğlu, keçmiş milyoner Tağıyevin kürəkəni, çar ordusuu poruçiki, fevral inqilabından sonra Bakıda «vəhşi diviziya» təşkil edən, 1918-ci ildə sovet ordusuna qarşı mübarizə aparan Əli Əsədullayev 1921-ci ilin dekabrında Gürcüstanda həbs olundu.

Bağırovun imzaladığı 15 dekabr 1921-ci il tarixli məktuba əsasən, Əsədullayev Beriyanın imzaladığı 30 dekabr 1921-ci il tarixli orderlə həbsdən azad edilib, Bağırovun sərəncamına göndərildi. İş üzrə heç bir təhqiqat aparılmayıb.

Sonralar Əli Əsədullayev Bakı cıdır meydanında işləyirmiş, daha sonra isə arvadı ilə birlikdə İrana qaçıb.

Müttəhim Bağırov bu barədə istintaq zamanı bildirdi ki, Əsədullayevin nə üçün istintaqa cəlb olunmaması və həbs edilməməsindən xəbəri yoxdur.

Şahidlər: Qasımov Əyyub Mikayıl oğlu, Mehdiyev Əliqulu Gur oğlu göstərdilər ki, Bağırovun Əli Əsədullayevlə münasibətləri çox yaxın imiş.

Beləliklə, müəyyən olunub ki, Bağırov və onun əlaltıları Sovet hökümətinə və kommunist partiyaasına sadiq kadrlara divan tutmaqla bərabər, fəal əksinqilabçıları məsuliyyətdən uzaqlaşdırıb, onlara himayədarlıq etmişlər.

...Gördüyünüz kimi, DTK arxivini sırasınca araşdırdıqca, növbəti səhifələri boyu M.C.Bağırovun necə bir güclü şəxsiyyət olduğunun dərkinə varırıq. Keçmiş Bakı neft milyonçuları Əsədullayevlər, Tağıyevlər ona çox böyük borcludurlar. Şahidlərin dediyinə görə: Bakıda 1918-ci ildə "Vəhşi diviziya" yaradıb sovet hökumətinə qarşı mübarizə aparan Əli Əsədullayev 1921-ci ilin dekabrnda Gürcüstanda həbs olunub. Bu, dövlət "xidməti" - "sədaqəti" ilə musavatçılıq ideologiya-prinsipləri arasında çox möhtəşəm və olduqca dəhşətli bir ziddiyyətdir. Heyrətamiz dərəcədə riskin yüksək səddini aşan Bağırovun, musavatçı Əsədullayevin oğlu və H.Zeynalabdin Tağıyevin kürəkəni Əli Əsədullayev, 15 dekabr 1921-ci il tarixli məktubu əsasında Beriya imzaladığı 30 dekabr 1921- ci il tarixli orderlə azad edilib, Bağırovun sərəncamına göndərilib. İş üzrə heç bir tədqiqat aparılmayıb. Və sonda müttəhim Bağırov bu olaylardan xəbəri olmadığını açıqlamış. Əslində, şahidlərin dediyinə əsasən, Bağırovun Əli Əsədullayevlə münasibətləri çox yaxın olmuş.
ARBS.

Azərbaycan K(b)P MK-nin ikinci katibi, neft sənayesi sahəsində görkəmli mütəxəssis olan Əşrəf Əlizadə sərbəstdüşüncəli, hər hansı məsələyə münasibətini açıq-aydın bildirməyi sevən adam idi. Onun fikirləri bəzən Bağırovun fikirləri ilə daban-dabana zidd olurdu. Bu da Əşrəf Əlizadənin, eləcə də onun qohumlarının şübhəlilər siyahısına salınması üçün kifayət edirdi. Bağırov Yemilyanova göstəriş verdi ki, Əşrəf Əlizadəni siiyasi cəhətcə savadsız bir şəxs kimi nəzarətə alsın.

1946-cı ilin sonlarında Əşrəf Əlizadə öz evində qaynı – o vaxtlar Azərbaycan Dövlət Təhlükəsizlik nazirinin müavini olan Ələkbər Mustafayevin yanında Bağırov barədə bəzi sözlər söylədi. O dedi ki, Bağırov hamını qənaətcil olmağa, sadə həyat sürməyə çağırır, özü isə, ölkə *müharibədən çıxdığı bir vaxtda* ***Zuğulbadakı bağında yüzlərlə əsgərin zəhməti hesabına bahalı və nəhəng hovuzlar tikdirir. Bağının meyvəsini bazar qiymətləri ilə satdırır və s. Daha sonra isə Əlizadə deyib ki, yaxşı olardı ki, xərclənən vəsait hesabına neftçilər üçün istirahət evi tikdirəydi.***

Mustafayev də Əlizadənin dedikləri ilə razılaşdı.

Ertəsi gün Mustafayev nazir Yemelyanovun qəbuluna çağrıldı. Yemelyanov ona bildirdi ki, onun Əlizadə ilə Bağırov barədə söhbətindən xəbərdardır və Əlizadənin Bağırov barədəki söhbətini sözbəsöz təkrar etdi.

Çox keçmədən Mustafayev işdən azad edildi, sonra isə partiyadan xaric olundu. Əlizadə və Musğafayevin hər hərəkəti izlənilməyə başladı.

Şahid Şahanbəyov Həmzə Musabəyoviçin bu barədə ifadəsi var:

"Qəmər Əlizadə və onun qardaşı Ələkbər Mustafayevin ifşa olunması barədə tapşırığı mən aşağıdakı şəraitdə aldım: «1948-ci ilin payız günlərindən birində mən evimə getdiyim yerdə hiss elədim ki, kimsə məni güdür, çekist kəşfiyyatçılar məni qarbaqara izləyir. Mən öz mənzilimə yaxınlaşanda mülki geyimdə olan üç nəfər məni əhatəyə alıb bildirdi ki, məni nazir Yemelyanov yanına çağırır. Məni maşına mindirib, Azərbaycan DTN-nə, şöbə müdirinin müavini Kəmərskinin otağına gətirdilər. Orada mən gecə saat 1-dək gözlədim. Sonra məni Yemelyanovun otağına apardıllar. Yemelyanov əvvəlcə məni söyməyə, təhqir etməyə başladı: «Sən ikiüzlüsən. Sən dövlət xainisən». Sonra isə əsas məsələyə keçdi…

Kəmərski mənə təklif etdi: «Sən müəyyənləşdirməlisən görək, Mustafayevin Əlizadə ilə əlaqəsi var, ya yox. Sən öyrən gör, onlar Bağırovun əleyhinə nə fikirləşirlər. Sən Moskvaya gedib Mustafayevi ifşa etməlisən».

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi adından məni Moskvaya göndərdilər. Moskvada Mustafayevlə ünsiyyət zamanı mənə aydın oldu ki, onun türk kəşfiyyatı ilə əlaqədə olması barədə şübhələr əsassızdır, bu, Mustafayevin əleyhinə cinayət işi qaldırmaq üçün bir bəhanədir.

Kəmərski mənə Mustafayevi «qonaq etmək» üçün pul vermişdi. Moskvada olarkən Kəmərski mənə min manat pul göndərmişdi. Mən həmin pulları Mustafayevin aclıq çəkən balaları üçün xərclədim.

Qayıdandan sonra mən Kəmərskiyə məlumat verdim ki, Mustafayevin türk kəşfiyyatı ilə heç bir əlaqəsini müəyyənləşdirməmişəm. O mənə bildirdi ki, bu barədə «general»a, yəni Yemelyanova məlumat verəcək. Sonra isə mənə bildirdi ki, «general» məndən çox narazı qalıb.

Bundan sonra isə mənə Qəmər Əlizadə ilə əlaqə saxlamaq tapşırığı verildi: «qadının hülqumu zəif olar», bəlkə ondan bir şey öyrəndin. Bu tapşırığı mənə Kəmərski verib dedi ki, «Bağırov bizə rahatlıq vermir, deyir ki, bu ailəni darmadağın etmək lazımdır».

Kəmərskinin tapşırığı ilə mən Əşrəf Əlizadə ilə görüşdüm, ancaq onun söhbətlərinin hamısı Bağırovu söyməklə başa çatırdı.

Mən Kəmərskiyə bildirdim ki, heç bir casusluq fəaliyyəti aşkara çıxarmamışam. Məndən Mustafayev və Əlizadə barədə yalançı məlumat almaq istədiklərini görüb, Kəmərskiyə bildirdim: «Siz məndən uydurma məlumat qoparmaq istəyirsinizsə, mən onu verə bilməyəcəyəm». Bundan sonra Yemelyanov məni iki dəfə yanına çağırdı və üstümə çığırdı: «Sən əclafsan. Ancaq başına elə oyun açacağıq ki, bizi uzun müddət xatırlayacaqsan. Rədd ol burdan», deyib otağından qovdu.

On gündən sonra Azərbaycan SSR Ədliyyə Naziri Əli Məmmədov mənim hüquq sistemindən qovulmağım barədə əmr verdi. Mən başa düşdüm ki, bütün bunları Bağırov və Yemelyanov ediblər».....

Əşrəf Əlizadə Azərbaycan K(b)P MK büro iclasına çağırıldı. Atakişiyev onun «cinayətkar fəaliyyəti» barədə məruzə etdi. Büro iclasında iştirak edən Sumbatov – Topuridze Əlizadəyə belə

bir sualla müraciət etdi: «Siz hansı kəşfiyyata xidmət edirsiniz – Amerika, ya türk kəşfiyyatına?

Bağırov öz çıxışında Əlizadəyə bildirdi:

«Partiya sizə öz arvadınızdan boşanmağı təklif edir». Əşrəf Əlizadə formal da olsa arvadını boşamağa məcbur oldu. Ancaq o, Bağırovdan gizli olaraq arvadı ilə Stavropol vilayətində, Kislovodsk, Yealassentuki və digər şəhərlərdə görüşürdü. Sonra Əlizadənin vəzifəsi kiçildildi, o, «Azərneftkəşfiyyatı» birliyinə rəis təyin olundu. O vəzifədən də «rəhbərliyi təmin etmədiyinə görə» azad edildi. Əlizadə Azərbaycanı tərk etmək məcburiyyətində qalıb, daimi yaşamaq üçün Türkmənistana getdi.

Bağırova xoş gəlsin deyə Əşrəf Əlizadəyə, onun arvadı Qəmər Əlizadəyə və qaynı Ələkbər Mustafayevə cinayət işi açmaq və onları həbs etmək üçün Yemelyanov bir sıra təxribatlara əl atdı.

1948-ci ilin sonlarında Qəmər Əlizadə iki azyaşlı uşağı ilə birlikdə Türkmənistana – ərinin yanına yollandı. Bundan istifadə edən Yemelyanov təxribata əl atdı. Krasnovodskda Qəmər gəmidən düşərkən Azərbaycan DTN-nin gizli agenti olan bir qadın qışqırıb bağırmağa başladı: «oğrunu tutun, oğrunu tutun. O pullarımı oğurladı». Qəmər Əlizadə uşaqları ilə birlikdə DTN-nin şöbəsinə gətirildi, onun özü və əşyaları yoxlanıldı. Yalnız 5 saatdan sonra onu azad etdilər.

Bu hadisəni Azərbaycan SSR Dövlət Təhlükəsizlik Nazirinin müavini Atakişiyevin Türkmənistanın Dövlət Təhlükəsizlik Naziri Qalkinə göndərdiyi məktub və ondan aldığı cavab bir daha təsdiq edir.

1948-ci ilin iyulunda Qəmər Əlizadənin əmisi qızı, müəllimə Sürayə Tağıyeva Ordubaddan Bakıya gəldi. O, bağından yığdığı 100 kq meyvəni gətirib bazarda satmışdı. Həmin meyvənin puluna iki cüt sırğa və bəzi digər şeylər almışdı. Əlizadənin nüfuzunu salmaq üçün Tağıyeva tutulub alverçi kimi məsuliyyətə cəlb olunmuşdu.

Yerli qəzetlərdə belə bir yazı verildi ki, Əşrəf Əlizadənin evində alverçi yuva salıbmış.

Əşrəf Əlizadəni, arvadı Qəməri və qaynı Ələkbər Mustafayevi gözdən salan ifadələr əldə etmək üçün Yemelyanov 1948-ci ilin 18 noyabrında Əliqulu Səttar oğlu Fərəcovun türk kəşfiyyatı orqanları ilə əlaqəsini aşkara çıxarmaq və həbs etmək məqsədilə gizlicə aradan götürmə tədbirlərini təsdiq etdi.

Bu palana əsasən, Kənd Təsərrüfatı İnstitutunun direktoru Əliqulu Fərəcov Naxçıvan şəhərinə ezamiyyətə göndərildi, ancaq yolda stansiyaların birində qatardan düşürülüb avtomaşında Bakıya gətirildi və Azərbaycan DTN-nin daxili həbsxanasında təkadamlıq kameraya salındı.

Bir neçə gün ərzində Yemelyanov, Qasımov və Atakişiyev Fərəcova işgəncə verməklə ondan Əşrəf Əlizadənin, Qəmərin və Mustafayevin türk kəşfiyyatı ilə əlaqədar olması barədə yalançı məlumatlar almaq **istəmişlər.**

Fərəcovun özü bu barədə deyirdi:

«Məndən yalan ifadə ala bilməyən Kəmərski səhərə yaxın məni həmin təkadamlıq kameraya göndərdi. Ertəsi gün mən

Kəmərskinin və Qasımovun yanına istintaqa çağırıldım. İstintaq zamanı keçmiş nazir Yemelyanov iki dəfə otağa daxil oldu.

…İstintaq zamanı mənə Azərbaycan KP MK-nın keçmiş ikinci katibi Əlizadəni və keçmiş DTN nazir müavini Mustafayevi ləkələyən hər hansı bir hadisə danışmaq təklif olunurdu. Kəmərski və Qasımov açıq-aşkar Əlizadənin və Mustafayevin türk kəşfiyyatı ilə əlaqəsi barədə yalan ifadə verməyi təklif edirdilər.

Mən sovet hökümətinə qarşı heç bir cinayət törətməmiş adamlara böhtan atmayacağımı bildirəndə, Kəmərski və Qasımov məni hədələməyə başladılar və dedilər ki, sənin vəziyyətin pisləşə bilər. İstintaq gedən otağa Yemelyanov da gəlib, yumruğunu stola vurdu, mənim ünvanıma nalayiq sözlər dedi və bildirdi ki, əgər mən Əlizadə, Mustafayev və Ömər Faiq (Mustafayevin atalığı) barədə ifadə verməsəm, məni zirzəmidə çürüdəcək, bir daha işıq üzü görməyəcəyəm, gün işığına həsrət qalacağam.

Mənim istintaqım protokolla rəsmiləşdirilmirdi. Mən yenidən təkadamlıq kameraya salındım. Gecə məni Qasımovun, oradan da Yemelyanovun yanına apardılar. Yemelyanov Qasımovun yanında mənim üstümə çığırmağa, nalayiq sözlər deməyə başladı. Mən ona namuslu adam olduğumu və namuslu adamlara böhtan atmayacağımı bildirəndə, Yemelyanov məni karserə salmağı əmr etdi. Karserin şüşələri sınıq olduğundan çox soyuq idi. Mənə elə gəlir ki, şüşələr karserə salınan dustaqlara daha çox işgəncə vermək üçün qəsdən sındırılmışdı. Məni karserdə bir sutka saxladılar, nə yemək, nə su verdilər. Karserdəki temp-

ratur küçədəkinə bərabər olduğu üçün mən bu müddət ərzində tamam donmuşdum. Həmin il qış çox sətr keçirdi. Soyuqdan məni titrətmə tutmuşdu, mənə tibbi yardım göstərilməsni xahiş etdim. Mən başa düşdüm ki, burada ölsəm də, kimsənin bundan xəbəri olmayacaq.

Bədənimə işləyən soyuqdan, yuxusuzluq və aclıqdan üzülmüş vəziyyətdə, Qasımova istədiyi ifadəni verməyə razı olduğumu bildirdim. Qasımov mənə kağız-qələm verib, öz əlimlə yalan yazmağa məcbur etdi.

Əlizadə Qəmərin vəkil Mirzə Hüseynovla tanışlığı barədə məlumat alan Yemelyanov həmin vəkili tutub daxili həbsxanaya salmağı əmr etdi.

"Azərbaycan K (b) P MK-nin ikinci katibi, neft sənayesi sahəsində görkəmli mütəxəssis olan Əşrəf Əlizadə sərbəstdüşüncəli, hər hansı məsələyə münasibətini bildirməyi sevən adam idi. Onun fikirləri bəzən Bağırovun fikirləri ilə daban-dabana zidd olurdu. Bu da Əşrəf Əlizadənin, eləcə də onun qohumlarının şübhəlilər siyahısına salınması üçün kifayət edirdi. Bağırov Yemelyanova göstəriş verdi ki, Əşrəf Əlizadəni siyasi cəhətcə savadsız bir şəxs kimi nəzarətə alsın.

1946-cı ilin sonlarında Əşrəf Əlizadə öz evində qaynı – o vaxtlar Azərbaycan Dövlət Təhlükəsizlik nazirinin müavini olan Ələkbər Mustafayevin yanında

Bağırov barədə bəzi sözlər söylədi. O dedi ki, Bağırov hamını qənaətcil olmağa, sadə həyat sürməyə çağırır, özü isə, ölkə müharibədən çıxdığı bir vaxtda Zuqulbadakı bağında, yüzlərlə

əsgərin zəhməti hesabına bahalı və nəhəng hovuzlar tikdirir. Bağının meyvəsini bazar qiymətləri ilə satdırır və s. Daha sonra isə Əlizadə deyib ki, yaxşı olardı ki, xərclənən vəsait hesabına neftçilər üçün istirahət evi tikdirəydi.

Mustafayev də Əlizadənin dedikləri ilə razılaşdı.

Ertəsi gün Mustafayev nazir Yemelyanovun qəbuluna çağrıldı. Yemelyanov bildirdi ki, onun Əlizadə ilə Bağırov haqqında söhbətindən xəbərdardır və Əlizadənin Bağırov barədəki söhbətini sözbəsöz təkrar etdi.

Çox keçmədən Mustafayev işdən azad edildi, sonra isə partiyadan da xaric olundu. Əlizadə və Mustafayevin hər hərəkəti izlənməyə başladı."

...DTK arxiv sənədinin bu parçasını olduğu kimi verdim ki, siyasi düşüncə savadı və hadisələrə real tərəfdən baxmaq qabiliyyəti olan insan üçün əsil tarixi həqiqətləri qavramaqda asan olsun.

Sənədlər əsasında etdiyim təhlillər, nəinki M.C.Bağırov quruluşu dövrünün, hətta tarix boyu - dövlətçilik anlayışı tətbiq olunduğu tarixdən hakimiyyətçilərin şəxsi düşüncə tərzləri qaba psixuloji nöqteyindən belə olub.

M.C.Bağırovun müəmmalı siyasi dəyişikliyi olduqca dəhşətlidir. Adamın həm sadə dolanışıq aşılaması, lakin eyni zamanda isə özünə **"Zuqulba Keyfi..."** yaratması... çox çətin anlaşılan yanaşmalarıdır. M.C.Bağırov xofundan heç bir çəkinəcəyi olma-

yan Ə.Əlizadə, əlbəttə haqlıdır. Yəni Azərbaycan ikinci dünya müharibəsində yenicə çıxdığı bir vaxtda, Bağırovun özünə özəl Zaqulba konfortu yaratması heç bir məntiqə, insaniyyətə sığan bir hərəkət deyil. Və bu haqsızlığı cəsarətlə etiraf etdiyinə görə, Bağırov Əlizadə və Mustafayevi necə bir oyuna atır.

Şahid Şahanbəyov Həmzə Musabəyoviçi çekist kəşfiyatı ilə izləməklə, sonra həmən götürüb Yemelyanovun yanına gətirməklə onlar cızdıqları gizli planlarını həyata keçirməyə başlayırlar. DTN-nin şöbəsinin müdür müavini Kəmərskinin otağıda gətirilir. Gecə saat birə qədər burada gözləyən Musabəyoviçi sonra Yemelyanovun yanına aparırlar. Yemelyanov əvvəlcə onu söyməyə, təhqir etməyə başlamış: **"Sən ikiüzlüsən, sən dövlət xainisən."** Sonra isə əsas məsələyə keçib...

Kəmərski Musabəyoviçə təzyiq nəticəsində məcbur etməyə çalışmıdır ki, Mustafayevin Əlizadə ilə əlaqəsinin olmasını müəyyənləşdirsin. Öyrənsin

ki, onlar Bağırov haqqında daha nə fikirdədirlər. Və Moskvaya gedib Mustafayevi ifşa etməsini tələb edib.

Sonra Musabəyoviç Azərbaycan Ədliyyə Nazirliyi adında Moskvaya göndərilib. Və Mustafayevlə ünsiyyəti zamanı aydın olub ki, o, heç bir türk kəşfiyyatı ilə əlaqədə olmayıb. Bu plan sadəcə onu haqqında çinayət işi açılması üçün bir bəhanədir.

Sonrakı şahmat gedişində Kəmərski Musabəyoviçə pul vermişdi ki, Mustafayevi "qonaq etsin." Musabəyoviç isə onun verdiyi min manatı Mustafayevin Moskvada aclıq çəkən uşaqlarına xərcləmişdi.

Musabəyov Moskvadan qayıdan da, Kəmərskiyə bildirib ki, Mustafayevin türk kəşfiyyatı ilə heç bir əlaqəsi yoxdur. Kəmərski isə bunu "general"a yəni Yemelyanova çatdıracağını söyləyib. Lakin Kəmərski Mustafayevi növbəti bir füqura cəhd etməsini masaya çıxarır. Onu Qəmər Əlizadə ilə görüşməsini tapşırıq verir: ***"Qadını hulqumu zəif olur, bəlkə bir şey öyrəndin. "*** Sonra isə Kəmərski etiraf edib ki, ***"Bağırov bizə rahatlıq vermir, deyir ki, bu ailəni darmadağın etmək lazımdır."***

Musabəyoviç Kəmərskinin tapşırığı ilə Əşrəf Əlizadə ilə görüşəndə isə, Əlizadənin bütün söhbətləri Bağırovu söyməkdən ibarət olub. Bu, olduqca mükəmməl haqlı tərəfdir.

Sonra Kəmərski Musabəyovdan tələb edib ki, Əşrəf Əlizadəyə və Ələkbər Mustafayevə qarşı yalançı şər-böhtanlar hazırlasın. Bu tapşırığı bacarmayacağını söylədikdə, Yemelyanov Musabəyoviçin üstünə bağıraraq deyib: ***"Sən əclafsan! Ancaq başına elə oyun açacayıq ki, sonra bizi uzun müddət xatırlayacaqsan. Rədd ol buradan!"***

On gündən sonra M.C.Bağırovun göstərişi ilə Azərbaycan Ədliyyə Naziri Əli Məmmədov Musabəyoviçin hüquq sistemindən qovulması haqqında əmr verib.

Əşrəf Əlizadə Azərbaycan K (b) P MK-nin büro iclasına çağrılmış, Atakişiyev isə onun "cinayətkar fəaliyyəti" barədə məruzə etmişdir. Büro iclasında iştirak edən Sumbatov- Topudidze Əşrəf Əlizadəyə belə bir sual vermişdi: ***" Siz hansı kəşfiyata xidmət edirsiz –Amerika, ya türk kəşfiyatına?"***

Bağırov isə öz çıxışında Əlizadəyə bildirib ki, partiya sənin arvadından boşanmasını tələb edir. Əlizadə bu tələbi yerinə yetirməyə məcbur olub. Lakin rusiyanın müxtəlif şəhərlərində həyat yoldaşı Qəmər Əlizadə ilə gislicə görüşməyə başlayıb.

Ə.Əlizadənin vəzifəsi kiçildilərək, "Azərneftkəşfiyyatı" idarəsinə rəis təyin olunub. Lakin o vəzifədən də "rəhbərliyi təmin etmədiyinə görə" azad edilib. Sonra isə Azərbaycanı məcburiyyət üzündən tərk edərək, həmişəlik yaşamaq üçün Türkmənistana gedib. Lakin iş bununla da bitmir. Bağırova xoş gəlsin deyə, Əşrəf Əlizadəyə, xanımı Qəmər Əlizadəyə və Ələkbər Mustafayevə qarşı Yemelyanov yeni təxribatlara əl atmışdır.

Bu hadisəni, Azərbaycan Dövlət Təhlükəsizlik Nazirinin müavini Atakişiyevin Türkmənistan Dövlət Təhlükisiz Naziri Qalkinə göndərdiyi məktubu və ondan aldığı cavab bir daha təsdiq edir.

Bundan başqa Bağırov, Ə.Əlizadənin nüfuzunu məhv etməkdən ötrü, hətta Qəmər Əlizadənin əmisi qızı vasitəsilə də, mətbuat səhifələrində hay-küy salmağa cəhdlər etmişdir. Guya Əlizadə evində alverçi saxlayırmış. Əslində isə məsələ bundan ibarətdir: Q.Əlizadənin əmisi qızı müəllimə Sürayə Tağıyeva Ordubaddan Bakıya gətirdiyi öz bağının yüz kiloqram meyvəni satıb, özünə lazımi əşyaları almışdır. Əşrəf Əlizadəni nüfuzdan salmaq üçün xanım Sürayə isə tutulub "alverçi" adı ilə məsuliyyətə cəlb edilmişdir.

Bağırov, Əşrəf Əlizadəni, xanımı Qəmər Əlizadəni və Ələkbər Mustafayevi yenə nüfuzdan salmaq üçün, növbəti təxribata sürükləməkdən ötrü, Kənd Təsərrüfatı İnstitutunun direktoru Əliqulu Fərəcovdan istifadə etmişdir. O müəmmalı şəkildə Naxçıvana ezamiyyətə göndərilir. Yolda isə növbəti stansiyaların birində qatardan düşürülüb Bakıya gətirilərək, DTN-nin daxili həbsxanasının təkadamlıq kamerasına salınmışdır.

Bir neçə gün ərzində Yemelyanov, Qasımov və Atakişiyev Fərəcova işgəncələr verərək, Ə.Əlizadənin, Qəmər Əlizadənin və Ələkbər Mustafayevin türk kəşfiyyatı ilə əlaqələrinin olması haqqında yalan məlumatlar almağa çalışmışlar.

Əliqulu Fərəcov özü bu barədə demişdir:

"İstintaq zamanı mənə, Azərbaycan KP MK-nın keçmiş ikinci katibi Əşrəf Əlizadəni, keçmiş DTN nazir müavini Ələkbər Mustafayevi ləkələyən hər hansı bir hadisə danışmaq təklif olunurdu. Kəmərski və Qasımov açıq-aşıkar Ə.Əlizadənin və Mustafayevin türk kəşfiyyatı ilə əlaqəsi barədə yalan ifadə verməyimi təklif edirdilər.

Mən, sovet hökumətinə qarşı heç bir cinayət törətməyən adamlara böhtan atmayacağımı bildirəndə, Kəmərski və Qasımov məni hədələməyə başladılar və dedilər ki, sənin vəziyyətin pisləşə bilər. İstintaq gedən otağa Yemelyanov da gəlib, yumruğunu stola vurub, mənə nalayiq sözlər dedi və bildirdi ki, əgər mən Əlizadə, Mustafayev və Ömər Faiq (Mustafayevin atalığı) barədə ifadə verməsəm, məni zirzəmidə çürüdəcək, bir daha işığ üzü görməyəcəm, gün işığına həsrət qalacağam..."

...Ə.Fərəcovun istintaqı protokolla rəsmiləşdirilməmişdir. O yenidən təkadamlıq kameraya salınmış və gecə isə Qasımovun, oradan da Yemelyanovun otağına aparılmışdır. Və bu zaman Yemelyanov yenə onun üstünə çığıraraq, ona nalayiq sözlər deməyə

başlamışdır. Fərəcov özünün namuslu adam olduğundan və namuslu adamlara böhtan atmayacağını bildirəndə, Yemelyanov onu kayserə salınmasını əmr etmişdir.

ARBS.

Ə.Fərəcov:

"Kayserin pəncərə şüşələri sınıq olduğu üçün çox soyuq idi. Ora salınan dustaqlara daha ağır işgəncə verməkdən ötrü qəsdən sındırmışdılar. Məni kayseri də bir sutka saxladılar və nə yemək, nə su verdilər. Kayseridəki temperatur küçədəki ilə eyni olduğu üçün, mən tamamilə donmuşdum. Həmin il qış çox sərt keçmişdi. Mən yaman titrədirdim, mənə tibbi yardım göstərilməsini xahiş etdim. Mən başa düşdüm ki, burada ölsəm də, bundan kimsənin xəbəri olmayacaq. Bədənimə işləyən soyuqdan, yuxusuzluqdan və aclıqdan üzülmüş vəziyyətdə, Qasımova istədiyi ifadəni verməyə razı olduğumu bildirdim..."

...Beləliklə də, Qasımov Fərəcovun əlinə kağız-qələm verərək, onun yalan ifadə yazmasına nayil olub. Hətta, Qəmər Əlizadənin vəkil Mirzə Hüseynovla tanışlığı barədə məlumat alan Yemelyanov, həmin vəkili tutub daxili həbsxanaya salınmasını əmr etmişdir.

M.C.Bağırov kimi sağı-solu kəsən hökmüranlar...
Əsrlər boyu belə tarix yazdırıb.

Biz eradan əvvəl və sonrakı tarixnamələri araşdırarkən eyni işgəncəli – qanlı səhnələri dərk edirik. Həqiqəti qələmə almaq,

böyük riskdir. Bax, bu həyati risklərə cəsarətli addımlar ataraq, gerçəkci yazarlar gələcək nəsillər üçün çox böyük işlər həyata keçirmişlər. Və bu cild-cild kitabələrdə insanın qanını donduracaq gücdə dəhşətli xaqanların, sultanların, şahların, kralların və nəhayət prezidentlərin necə bir hakimiyyət məkrlərincə, saysız-hesabsız günahsız xalqların qanına susadığını görürük. Hökmüdarların fironluq səltənətlərinin, əslində mənası, bu. Hökmüdarlar əllərində qanlı hakimiyyətlərini saxlamaqdan ötrü, xalqları yalnız əzmək qorxusu altında zəncirləyirlər. Onların işğalçılıq nasizm ideologiyası, əsrlərin tarixi boyu günahsız xalqların kütləvi qırğınına səbəb olmuşdur. Onlar... Allahdan qorxmurlar!

Hökmüranlıq aqibətlərinin sonu isə...
XALQI MAT QAYUR!

ARBS. 25.03.2019